♦ Dramaturgiya



*İlqar FƏHMİ*

# BAZAR GÜNÜ

***♦ Dörd pərdəli pyes***

***Hadisələr cəbhə bölgəsində yerləşən hərbi hissə komandiri polkovnik Rauf Mirbabayevin Bakıdakı evində cərəyan edir…***

**İştirakçılar:**

| | |
|---|---|
| **RAUF MİRBABAYEV** | – *Polkovnik. Cəbhə bölgəsində yerləşən hərbi hissə komandiri (47 yaşda)* |
| **TEYMUR KİŞİ** | – *Raufun atası. Ailənin ağsaqqalı (75 yaşda)* |
| **KAMALƏ** | – *Raufun bacısı (42-43 yaşlarında)* |
| **SAHİB** | – *Raufun oğlu. Magistr (22 yaşda)* |
| **SEVİL** | – *Raufun qızı (20 yaşda)* |
| **ZÖHRƏ** | – *Raufun xanımı (45 yaşda)* |
| **XUMARƏ** | – *Zöhrənin bacısı. Bağça müdirəsi (47 yaşda)* |
| **ELXAN MÜƏLLİM** | – *Xumarənin əri. Böyük bir bankda filial müdiri (50 yaşlarında)* |
| **AQŞİN** | – *Zöhrənin qardaşı. Keçmiş jurnalist. Həmin bankda kiçik kredit məsələləri üzrə mütəxəssis (35 yaşlarında)* |
| **AFA XANIM** | – *Elxanın qohumu. Avropada yaşayan çox varlı bir sahibkar xanımı (50 yaşlarında)* |
| **NURİK** | – *(Nurlan) Afa xanımın oğlu. Doktorant (25 yaşlarında)* |
| **CAVİD** | – *Sevilin sevgilisi. Leytenant (25 yaşlarında)* |

## *Proloq*

**Pərdə önü**

*Müasir dövrümüz. Şəhərdə bir park...*
*Səhər açılıb…*
*Sevil ilə Cavid gəzişirlər… Cavid leytenant rütbəli hərbçi paltarındadır.*

**SEVİL –** Səhər tezdən niyə çağırdın məni?
**CAVİD –** Ad gününü təbrik eləmək istəyirdim…
**SEVİL –** Axı danışmışdıq, sabah görüşəcəyik. Bu gün evə gəlib-gedən çox olacaq. Sabah rahat çıxardıq...
**CAVİD –** Sabah burda olmayacam… Komandir zəng eləmişdi. İşə çağırırlar… Burdan birbaşa çıxıram rayona…
**SEVİL –** Aaa, bəs axı məzuniyyətdəydin? Niyə qoymurlar dincələsən? *(ani düşünür)* Bəlkə nəsə olub orda?
**CAVİD –** Dəqiq bilmirəm. Yəqin, sən demiş, təmas xəttində yenə nəsə atışma-filan olub… *(hədiyyəni qıza verir)* Bu da sənin ad gününə hədiyyə…
**SEVİL –** Aa, nədi ki?
**CAVİD –** Evdə baxarsan… *(nəsə düşünür)* Evdəkilər salamatdı? Anamgiliylə danışmışam, inşaallah, bir az vəziyyət düzəlsin, bu xəstəlik sovuşsun, bizimkiləri göndərəcəm…
**SEVİL –** *(təəssüflə)* Göndərməyinə göndərərsən… Amma anam heç razı deyil…
**CAVİD –** *(əlini yellədir)* Narahat olma, birtəhər razı salarıq… *(telefonuna zəng gəlir)* Alo… hə, bildim… artıq çıxmışam... *(telefonu qapadır)* uşaqlar gözləyir... Yaxşı, can, mən gedim. Bir daha təbrik edirəm… Böyük qız olasan…

*Qucaqlaşırlar…*

**SEVİL –** Cavid, xahiş edirəm, özündən muğayat ol… mən səni çox istəyirəm… Sən olmasan, mən havalanaram…
**CAVİD –** Mən də…

*Sevil başını oğlanın çiyninə qoyur…*

*Səhnə qaranlıqlaşır…*

* * *

## *1-ci səhnə*

*Polkovnik Rauf Mirbabayevin Bakıdakı evi…*
*Həyət evi…*

*İri salon…*

*Otaq səliqəli də olsa, təmirinin köhnə olduğu hiss olunur. Divarların və mebellərin rəngi də solğundur. Kasıb ailə olduqları avadanlıqlardan hiss olunur…*
*Divarda xalçadan xəncər bıçaq, tüfəng, şəkillər və başqa dekor əşyaları asılıb…*
*Bir küncdə yerə qoyulmuş iri, qədimi, kəfkirli saat görünür. Lakin kəfkiri tərpənmədiyindən, saatın işləmədiyi bilinir.*
*Divarda hərbçi paltarında ev yiyəsinin müxtəlif rakurslarda şəkilləri var…*
*Salonun Qarşısında şüşəbənd var, şüşə arxasından bayırdakı meyvə ağacları, güllər görünür…*

*Sevilin ad gününə hazırlıq gedir…*

*Sevilin anası Zöhrə otağı səliqəyə salır, süfrəni düzəldir, iş görə-görə telefonla danışır…*

**ZÖHRƏ –** Hə, deyərəm, çox sağ ol, təbrik edərəm… Allah sizinkiləri də saxlasın… Yox ey, bizim haramıza yaraşır restoranda-filanda ad günü eləyək... İnşaallah xeyir işi olar, keçirdərik… Həə, elə özümüz yığışacağıq, beş-altı nəfər… Hə, demə… Heç icazə verirlər ki... Yaxşı, sağ ol, öpdüm, sağ ol... *(telefonu qapadır)* Lap zəhləmi tökdü e, Allah saxlamış, nə qədər danışar adam.

*Zöhrə işini davam edir… Qapı açılır, Zöhrənin kiçik qardaşı Aqşin gəlir…*

*Salamlaşırlar, Aqşin hədiyyəsini kənardakı yazı stolunun üstünə qoyur. Aqşin oturur, hiss olunur ki, dilxordur.*

*Zöhrə stol arxasında nəsə iş görə-görə söhbət edirlər...*

**ZÖHRƏ –** *(təəccüblə)* Elmiragil hanı?

**AQŞİN –** *(kefsiz səslə)* Gəlməyəcəklər?

**ZÖHRƏ –** Niyə?

**AQŞİN –** Nə bilim…

**ZÖHRƏ –** *(diqqətlə onun üzünə baxır)* Yenə qırıb-çatmısız bir-birinizi?

**AQŞİN –** *(boğuq səslə)* Hə… Axşam uşaqları götürüb getdi anasıgilə.

**ZÖHRƏ –** *(ağzını büzür)* Siz də az qala qırx yaşına çatdız, yenə uşaq oyunu oynayırsız. Mən səsimi çıxardıram, deyirsiz, Zöhrə baldızlıq eləyir... *(başını yelləıdir)* Həftə səkkiz-mən doqquz, balaca uşaq kimi küsüb gedir, sonra gəlir, sonra yenə gedir… İndi nə istəyir? Əvvəl həmişə pula görə deyinirdi, bir ildi, Allaha şükür, o məsələ də həll olunub...

**AQŞİN –** *(pauza)* Deyir, çox içirsən…

*Zöhrə əl saxlayır, fikrə gedir, sanki düşünür ki, sözü kiçik qardaşına necə desin ki, xətrinə dəyməsin…*

**ZÖHRƏ –** Aqşin, düzü, elə mən də istəyirdim bu barədə sənlə bir söhbət eləyim…

**AQŞİN –** Bəsdi də… indi də sən başladın? Mən bəyəm kefimdən içirəm? Əvvəl öz istədiyim yerdə işləyirdim… O xəbər agentliyi yaranan gündən orda olmuşam. Zülüm də çəksəm, yorulmurdum. Çünki ürəyim istəyən iş idi… Amma burda çətindi mənimçün…

**ZÖHRƏ –** Aa, deginən, yeznə həll eləsin də… Elxan özü səni yanına götürəndə demişdi ki, nə problem olsa, mənlikdi.

**AQŞİN –** Eeeh, Elxanın nə vecinə? Özü filial müdiridi, oturub kabinetində, kağız-kuğuzla eşələnir... mən amma bütün günü camaatın içindəyəm. Qapı-qapı gəzirəm kredit sahiblərinin dalınca… Biri yubandırır, verə bilmir, ağlayaıb yalvarır, o birisi hay-küy qaldırıb hədə-qorxu gəlir, biri qaçıb gizlənir… *(dişlərini sıxır)* Uff, adam gün ərzində nə qədər ağlaşma eşidər, nə qədər söyüş-qarğış yiyəsi olar… Götürə bilmirəm e. Qulaqlarımdan getmir səsləri… İçməsəm, havalanaram o işdə…

**ZÖHRƏ –** Onda elə qalardın köhnə yerində də. Maaşı az da olsa, heç olmasa, belə hala düşməzdin…

**AQŞİN –** *(əlini yelləyir)* Eeeh, oranın da öz problemləri vardı da... Onu yazma, bu mövzuya toxunma, filan şeyi tənqid eləmə, filan hadisəni demə…

Çox dözdüm, səbrim kəsildi. *(ani pauza verir)* Hərçənd axır vaxtlar vəziyyət bir az dəyişib. Neçə dəfə istəmişəm qayıdım geri…

**ZÖHRƏ –** Get də…

**AQŞİN –** Elmirə imkan verir ki? Deyir gül kimi maaşın var, ayda filan qədər pul gətirirsən… Qayıdacaqsan əvvəlki yerə, yenə oturacağıq makaron-vermeşilə…

*Pauza*

**ZÖHRƏ –** Siz ər-arvad əliniz isti yerdədi, əsl çətinlik görməmisiz. Mənim yerimdə olsan, neynərdin? *(başını yellədir)* Günah bizdədi… Balaca qardaşımız idin, uşaqlıqdan ərköyün elədik səni... İndi dözümün yoxdu çətinliyə… *(onun təqlidini çıxardır)* Orda filan problem vardı, işləyə bilmədim, burda filan problem var, dözə bilmirəm… *(səsini qaldırır)* Kişisən ey… Bir az möhkəm ol da... Cəhənnəmə ki söyürlər, qarğış edirlər… Bir qulağından al, o birindən ver… Camaat söyüş-qarğış yığa-yığa, milyonlar qazanır, heç vecinə də deyil… Sən də deyirsən, səsləri qulağımdan getmir…

**AQŞİN –** Eee, sən də elə Elmirə deyən deyirsən…

**ZÖHRƏ –** *(səsi qalxır)* Yaxşı, heç nə deməyək, sən də get qucaqla butulkanı, iç səhərəcən, gör axırın hara gedib çıxacaq…

*Zöhrə əsəbiliklə qalxır…*
*Səsə Zöhrənin oğlu Sahib içəri otaqdan çıxır…*

**SAHİB –** Çağırdın ana?

**ZÖHRƏ –** *(əlini yellədir)* Yox. Səninlə deyildim…

*Zöhrə mətbəxə keçir.*

**SAHİB –** *(dayısını görür)* Salam dayı, necəsən? *(əl verib salamlaşırlar)*

**AQŞİN –** Sağ ol, yaxşıyam…

**SAHİB –** Dayı, kompüterin antivirusu təzələnmir ey… Keçən dəfə sən necəsə eləmişdin, düzəlmişdi…

*Aqşin könülsüz də olsa qalxır...*

**AQŞİN –** Yaxşı, gedək baxaq…

*Onlar Sahibin otağının qapısına yaxınlaşırlar, birdən Aqşin ayaq saxlayır…*

**AQŞİN –** Anan necə əsəbləşdirdi e məni. Onsuz da qanım qaraydı… *(nəsə düşünür)* Ad günü üçün içməyə bir şey almamısız?

**SAHİB –** Yox, amma keçən dəfə Elxan əmi gətirmişdi, onlardan qalıb…

**AQŞİN –** Hardadı? Tez elə, gətir, nə qədər anan görməyib…

**SAHİB –** *(ağır-ağır)* Yaxşı…

*Sahib mətbəxin qapısına boylanır, tez şkafı açır, ordan yaraşıqlı formalı bir xarici içki şüşəsi çıxardır, gətirib Aqşinə verir…*

*Onlar Sahibin otağına keçirlər…*

## *2-ci səhnə*

*Sevil gəlir, əlindəki bir-iki kulyoku stolun üstünə yığır, rəngli hədiyyə çantasını da kənardakı yazı stolunun üstünə qoyur, pencəyini soyunub asılqana asır…*

*Zöhrə əllərini dəsmalla silə-silə mətbəxdən çıxır.*

**ZÖHRƏ –** *(stola yaxınlaşır)* Bu hardan? *(hədiyyə kulyokuna baxır)*

**SEVİL –** Qızlar verib...

**ZÖHRƏ –** *(kinayə ilə)* Səhər tezdən onunçün çağırmışdı səni qızlar? *(pauza verir)* Elə bilirsən, bilmirəm hardan gəlirsən?

**SEVİL –** Eey, ana, heç olmasa ad günümdə başlama da…

**ZÖHRƏ –** *(dişlərini sıxır)* Yaxşı… Amma istəyirsən lap özünü öldür. Mən səni ona verməyəcəm. Sən hərbçi arvadı olmayacaqsan… Özümün çəkdiyimi sənə çəkdirə bilmərəm...

**SEVİL –** Bəs mənim fikrim səninçün maraqlı deyil? Bəlkə mən istəyirəm?

**ZÖHRƏ –** *(kinayə ilə)* Elə o vaxt mən də istəyirdim… Atan geyinirdi zabit formasını, çiynində ulduzları parıldayırdı, boy-buxun, vid-fason… Mən də sənin kimi dirəndim ki, yox ey, hər şeyə dözərəm… *(başını yellədir)* Amma indi başıma döyürəm... O vaxt bacım nə qədər dedi, qulaq asmadım, öz bildiyimi elədim… Nə oldu? Odey, Xumarə il uzunu haçan istəyir, hara istəyir gedir, dünyada ölkə qalmayıb gəzməsinlər, amma mən heç yerə çıxa bilmirəm… Nə var-nə var, ərim hərbçidi, yüksək rütbəli zabitdi, bir addım da qırağa çıxmaqçün gərək əlli dənə yerdən icazə alsın… Ömrüm getdi rayonların palçığının içində… İndi istəyirsən sənin də hərbçiyə getməyə razılaşım? Heç vaxt…

**SEVİL –** *(əsəbiləşir)* Gərək mütləq ad günümü zəhərə döndərəsən də…

*Elə bu vaxt o biri otaqların birindən Zöhrənin baldızı Kamalə çıxır… Zöhrə ilə Sevil onu görüb sakitləşirlər, çünki onun yanında 15 yaşlarında qız uşağı da çıxır. Bu, məktəb müəlliməsi olan Kamalənin evdə hazırlaşdırdığı uşaqdır…*

*Onlar mehribanlıqla pıçıldaşaraq, qapıya tərəf gedirlər, qız çönüb evdəkilərlə də sağollaşır.*

*Kamalə tələbəsini yola salıb stol arxasındakıların yanına qayıdır…*

**KAMALƏ –** Sakit olun da, evdə adam var axı… Uşağın fikri qalmışdı sizin söhbətinizdə…

**ZÖHRƏ –** Eybi yox, qoy ibrət götürsün... sabah onun da qarşısına çıxacaq. *(qapıya tərəf boylanaraq)* Aa, uşaq tək gedəcək? Niyə buraxdın?

**KAMALƏ –** Eybi yox, yox, atası zəng eləmişdi, küçənin başında gözləyir…

**ZÖHRƏ –** *(başını yellədir)* Qız uşağıdı, xalxın əmanətidi… Tut əlindən, apar təhvil ver atasına…

**KAMALƏ –** *(stol arxasına əyləşir, bezmiş səslə)* Eeh, gedəcəm, yenə başlayacaq söz eşitdirməyə, ehyam vurmağa… *(başını yellədir, təqlid edir)* Qız uşağını tək böyütmək çətindi, böyük qız olub, mən də daha çatdırmıram, işim ağırlaşıb-filan.

**ZÖHRƏ –** Sən də dəhşətsən ey… *(narazılıqla üz-gözünü turşudur)* Bu yaşında Allah səninçün o cür qapı açıb. Dul kişidi, o cür imkanı, şəraiti… Qız da səni o cür çox istəyir, əl çəkmir səndən…

**KAMALƏ –** *(fikirli)* Atası da hər dəfə elə onu deyir… Deyir anası öləndən sonra, bu on ili evlənmədim ki, uşağın ürəyi sınmasın, tək böyütdüm. Amma sizə o cür öyrəşib, isinişib, bütün günü evdə sizdən danışır…

**SEVİL –** *(müdaxilə edir)* Hə də, düz deyir, ay bibi… Yeniyetmə qız uşağı kaprizni olur. Əgər sənə o cür bağlanıbsa, deməli, elə bir ailə də olsaz, etiraz eləməz…

**KAMALƏ –** Eeeh, ayıbdı, siz Allah, mənim bu saat ailə quran vaxtımdı? Camaat gülər mənə…

*Danışığından hiss olunur ki, Zöhrə baldızı Kamalənin ərə gedib evdə bir otağın da boşalmağının arzusundadır...*

**ZÖHRƏ –** Niyə gülürlər ki? Nə yaşın var bəyəm? Qırxı təzə keçmisən… Bir də, hamı bilir də başına gələni… Heç kim qınamaz.

**KAMALƏ –** Yox, bacarmaram... Həm də mən *(pauza verir, səsi bir az ağırlaşır)* ona söz vermişdim.

**ZÖHRƏ –** Ay qız, 25 il keçib ey üstündən… Söz çoxdan uçub gedib ey… Ömrünün axırınacan tək oturmayacaqsan ki…

*Kamalə gəlib divarda asılmış şəkillərdən birinin yanında dayanır, şəhid olan nişanlısının şəklinə baxır…*

**KAMALƏ –** Axı mən onu atıb necə ərə gedim? Axı mən ona demişəm, Ya sən, ya heç kim… *(Zöhrəyə çönür)* Yadındadı axırıncı dəfə Rasimlə bir yerdə bizə gəlmişdi? Alxanlıdakı evimizə. Yadındadı? Həyətdə samovar qaynatdılar, söhbət elədilər. Mürəbbə açdım onlarçün… Sonra Rauf da gəlib çıxdı… həmin gün o qədər gülüb danışdılar ki…

Qapıdan çıxanda əlimdən tutdu, dedi gözlərində saxla məni həmişə… Elə bil hiss eləmişdi nəsə... Sonra nə oldu? Getdilər… Bir günün içində ikisi də… Həm kiçik qardaşım, həm də nişanlım. Hər ikisi nər kimi igidlər…

**ZÖHRƏ –** *(ah çəkir)* Ay qız, bəsdi sən Allah, indi mən də kövrələcəm. *(ağlamsınır)* Bəsdi…

**KAMALƏ –** *(şəklə baxmaqda davam edir, gözləri dolur)* İndi mən onu gözlərimdən necə çıxardım? Başqasına necə gedim? 25 ildi əllərinin istisi ovcumdadı. Saxlamışam…

*Kamalə şəklə baxa-baxa ağlayır. Zöhrə isə birtəhər özünü ələ alır, su içir.*

**ZÖHRƏ –** *(Sevilə baxır, yavaşca)* Budey, bax, ibrət götür… Hərbçiyə könül verməyin axırı belə olur. Heç toy eləməyə də imkan tapmadılar, getdi şəhid oldu…

*Kamalə bir az sakitləşir, çönüb stola tərəf gəlir, oturur, su içir…*

**ZÖHRƏ –** *(qızına)* Sən də gözünün qabağına gətir bu həyatı… Gör dözə bilərsən?

**SEVİL –** Ee, niyə nəhs gətirirsən ey, ana. Hərbçidisə, mütləq ölməlidi?

**KAMALƏ –** *(söhbətin nədən getdiyini başa düşür)* Yenə Cavidin davasını eləyirsiz?

**ZÖHRƏ –** Adını çəkmə onun. Əsəbiləşirəm…

**KAMALƏ –** *(köksünü ötürür)* Bilmirəm niyə inad eləyirsən, ay Zöhrə. Vallah, yaxşı oğlandı, … Ailələri də yaxşı ailədi. Neçə il qonşu oldular bizimlə, bir dənə artıq-əskik hərəkətləri olmadı... Atası da o cür hörmətli, izzətli…

**ZÖHRƏ –** *(yenə bir az əsəbiləşir)* Qoy oturmuşuq… Hörmətli… İyirmi ildi oturub bir texnikomda, müəllimlikdən yuxarı qalxa bilmir… Quru bəydi də… Onun hörməti elə toylarda şeir oxumaqdandı… *(gülümsünür)* Amma zalım balasının doğurdan qəşəng şeir deməyi var… Bir deyən yoxdu ki, belə şeir oxumağın var, heç olmasa, gedib toylarda tamadalıq eləyərdin, əlin də pulla oynayardı… Yoxsa aman-zaman bir dənə oğlun ola, onu da aparıb atdı hərbiyə ki, uşaqçün ev-eşik düzəltmək dərdini çəkməsin…

**SEVİL –** Ana, Cavid özü seçib hərbi sahəni…

**ZÖHRƏ –** Hə də, daha özünü sındırıb deməyəcək ki, məcbur olub getmişəm ora… Anası da keçən il Əsmərgildə yasda deyir ki, *(təqlidini çıxardır)* oğlum qulaq asmadı bizə, öz bildiyini elədi… *(başını yelləedir)* Daha demir ki, başlarından eləyiblər uşağı. Qoy vayenni olsun, bizim başımızdan açılsın, bütün dərdü-sərini də hökümət çəksin…

**SEVİL –** *(artıq dözə bilmir)* Sənin gözündə elə hamı axmaqdı, keydi, səfehdi…əsas budu ki, Cavid məni sevir, mən də onu sevirəm.

**ZÖHRƏ –** *(izah eləməyə çalışır)* Əgər doğurdan çox istəsəydi, başqa cür hərəkət eləyərdi. *(nəsə xatırlayır)* Məsəlçün atan məni çox istəyirdi, ona görə o vaxt neçə dəfə dedi ki, bax otur yaxşı fikirləş, mənim həyatım o birilər kimi olmayacaq, çətinlikləri çoxdu, bir də gördün sabah müharibə başladı, vurub öldürdülər məni. Zabit xanımı olmaq asan deyil,… Mən də dedim yox, hər şeyə razıyam, hər şeyə dözəcəm… *(birdən səsi qırılır, sanki yaralı yeriymiş kimi, həmişəki kimi təkrar edir)* Kaş razı olmazdım. O vaxt nə qədər dedilər, qulaq asmadın. Öz bildiyimi elədim. Bütün ömrüm heçə getdi… *(ah çəkir, özünü ələ alır. Qızına çönür)* İndi sən də özün bax, elə bil ki cəhənnəmin qapısında dayanmısan. Mən özümü öldürürəm ki, ora düşməyəsən. Düşdünsə, daha geri yol olmayacaq. Hələ cəbhədə-filanda onun başına bir iş gəlsə, sənin ömrün ümumiyyətlə cəhənnəmə dönəcək.

**SEVİL –** *(dözə bilmir)* Bəsdi də… Bütün işlərimə nəhs gətirdin, həmişə qabağımı kəsdin… O qədər deyəcəksən ki, axırda doğurdan da Cavidin başına bir iş gələcək... Evini yıxacaqsan yazığın... *(gəlib onun qarşısında dayanıb dişlərini sıxır)* Heç adamın sənin kimi deyəni olmasın…

*Zöhrə də nəsə demək istəyir, amma qəfildən lap əsəbiləşir… Əlindəki dəsmalı hirslə stolun üstünə çırpır, oturur…*

**ZÖHRƏ –** Hə də, siz yaxşısız, mən pisəm… Mən bədniyabətəm, tamahkaram, naşükürəm… Mən sizin yolunuzu kəsirəm, həyatınızı məhv eləyirəm… *(ağlamsınır)* O vaxt mən də istəyirdim ki, hər yerdə fəxr eləyim ki zabit arvadıyam, xəyal qururdum ki, hamı barmağıyla göstərəcək ki, bax, bu filankəsin xanımıdı, əri qəhrəmandı, döyüşçüdü. Amma 25 il gözləyə-gözləyə qaldım… Elə ancaq əzab-əziyyət. Rayon qalmadı, kənd qalmadı. Bir il orda, iki il burda… İllər keçdi, amma mən fəxr eliyə bilmədim. *(ani pauza verir)* O, mənə söz vermişdi ki, kəndimizi alacaq, uşaqlara orda toy edəcək… Amma uşaqlar da böyüdü, evlənmək vaxtınız da çatır, bu gün-sabah nəvələrim olacaq, ancaq ortada heç nə yoxdu… Hələ ki fəxr eləmək qismət olmadı mənə. Elə ancaq xəcalət çəkirəm. Orda-burda kimə deyirəm ki, zabit arvadıyam, o saat ağızları əyilir. Bizdə fərli ordu var ki? Bizdə hərbçi nə gəzir? Hamısı boş-boşuna hökümətin pulunu yeyirlər. Bir tikə torpaq ala bilmirlər ermənidən…

*(başını yellədir)* Elə bilirsiz asandı illərlə bu sözləri udmaq? Elə bilirsiz asandı səfeh-səfeh adamların yanında dili qısa olmaq? Mən 25 il buna dözdüm, indi istəyirsən ki, sənin də bu həyatı seçməyinə dözüm? Dözə bilmərəm ey, vallah ikincisinə dözə bilmərəm. Başa düşün də məni…

*Zöhrə danışdıqca səsi qalxır, həyəcanlanır, təngnəfəs olur…*
*Sevil hiss edir ki, anası möhkəm əsəbiləşib, tez onu sakitləşdirməyə çalışır...*

**SEVİL –** Ana, yaxşı da, sakit ol, yenə təzyiqin qalxacaq... Niyə çıxdın ey özündən? Mən nə dedim ki?

*Kamalə ona su verir, Zöhrə alıb içir, alnını isladır.*

**ZÖHRƏ –** *(səsi batmış)* Öldür məni, çıx axırıma… Aparıb basdırarsan, sonra hərbçiyə ərə gedərsən… (boynunu ovuşdurur) Yenə boynumun damarı tutdu…

*Kamalə tez şkafın üstündən dərmanı götürür, Sevilə verir, Sevil alıb dərmanla anasının boynunu ovuşdurmağa başlayır. Zöhrə bir az sakitləşir.*

**ZÖHRƏ –** *(ağır səslə)* Bir azdan Xumarə xalan gələcək… Onun baldızıgili də qonaq çağırmışam…
**SEVİL –** *(tutulur)* Kimi, Afa xanımı?
**KAMALƏ –** Almaniyada yaşamırdılar onlar?
**ZÖHRƏ –** Əşi, onların ki elə biznesləri var, kefləri istəyəndə ordadılar, kefləri istəyəndə burda… *(pauza verir)* Qısası, oğlunun gözü düşüb sənə...
**SEVİL –** *(fikrə gedir)* Həəə, yayda xalagildə bağda olanda, ordaydılar. Hiss elədim elə…
**ZÖHRƏ –** Qoy xalan gəlsin, özü ətraflı başa salar…
**SEVİL –** *(qaşlarını çatır)* Xala mənə nə başa salacaq? Mən başqasını sevirəm…
**ZÖHRƏ –** Heç nə olmaz… Ərə gedərsən, bunu da sevərsən.
**SEVİL –** *(yenə əsəbiləşir)* Sən nə danışırsan ana? Cavid orda döyüş bölgəsində vətənçün can qoyur, mən ona deyim ki, bağışla, mən səni atıb xaricə ərə gedirəm?
**ZÖHRƏ –** *(yenə əsəbiləşir)* Saxla görüm ey… Atan da vətən deyə-deyə ömrünü Murovda çürütdü. Polkovnik də oldu, aylarla sapoq çıxmadı ayağından. Nə olsun? «Çox sağ ol» deyən var? Adam yerinə qoyan var? Odey, elə divar qonşumuza bax da… *(əliylə göstərir)* Yol polisinin serjantı da bizə yuxarıdan aşağı baxır… *(birdən nəsə xatırlayır)* Özün də xalanın yanında Cavid-filan söhbəti eləmə. Deməmişəm ona, xəbəri yoxdu. Eşidirsən məni?
**SEVİL –** *(dözə bilmir, bərkdən)* Yaxşı… Demərəm, əl çək…

*Sevil də keçib divanda oturur, qulaqcığı taxıb telefonda qurdalanmağa başlayır…*
*Mübahisə fonunda o biri otaqdan qoca kişinin səsi gəlir…*

**TEYMUR KİŞİ –** Ay qız, nə olub orda… Kamalə…
**KAMALƏ –** Bəsdirin də... Kişini durğuzduz yuxudan… *(o biri qapıya tərəf gedir)* Gəlirəm ata, gəlirəm…

*Kamalə qapını açıb atasının otağına keçir...*

**ZÖHRƏ –** Bu Allah saxlamış da lazım olan şeyi qışqırarsan, eşitməz, amma lazım olmayan şeyi yuxuda da qulağı alar...

*Zöhrə şkafdan çıxardıb dərman içir, dodaqaltı deyinə-deyinə işini davam edir, stolu hazırlayır…*

## *3-cü səhnə*

*Kamalə iç otaqlardan birinin qapısını açır, əlil arabasında olan atası Teymur kişini çıxardır, bir küncdəki televizorun qarşısına gətirir.*

**TEYMUR KİŞİ –** Niyə qışqırırdız?
**KAMALƏ –** Heç, qab düşmüşdü ayağımın üstünə…
**TEYMUR KİŞİ –** Yekə qızsan, bir dənə qabı əlində saxlaya bilmirsən…

*Teymur kişi pultu götürüb televizoru yandırır, kanalları dəyişərək televizora baxmağa başlayır…*

**ZÖHRƏ –** Sən Allah, səsini çox vermə, başıma düşür… Sonra yenə davlenim qalxacaq…

*Teymur kişi səsini alır…*

*Kamalə Zöhrənin yanına gəlir…*

**ZÖHRƏ –** *(Kamaləyə)* Kişi bir şey yeyib?
**KAMALƏ –** Hə, bayaq yedizdirdim. *(stol arxasında oturur)* Ver, mən də təmizləyim...

*Kamalə də şkafdan çıxan təzə stəkanların tozunu almağa başlayır…*

**ZÖHRƏ –** Belə də həyat olar? Adamın evinə illərlə heç kim gəlmir… Qabqacaq da qalıb şkafda toz basır. Elə bilirsən istəmirəm? Amma belə ev-eşiyə kimi çağırasan?
**KAMALƏ –** *(qabları silə-silə)* Yaxşı da, Zöhrə, sən canın, hər şeyçün çıxma özündən. Şükür Allaha, bir tikə çörəyimiz var, heç kimə möhtac deyilik, heç kimin yanında dili qısa deyilik… Allah qardaşımın canını sağ eləsin. Bütün yükümüzü çəkir.
**ZÖHRƏ –** *(başını yellədir)* Elə Allaha şükür eliyə-eliyə oturmuşuq ki, bir addım qabağa gedə bilmirik də…

*Zöhrənin telefonuna zəng gəlir. O, telefonu açıb qulağına sıxır…*

**ZÖHRƏ –** Alo, hə, salam bacı, necəsən? Gəlirsiz? *(dinləyir)* Həə? Yaxşı, bu saat uşaqları göndərərəm…

*Zöhrə telefonu qapadır, oğlunun otağına tərəf çönür…*

**ZÖHRƏ –** *(bərkdən)* Sahib, ay Sahib… Neynirsiz orda?

*Sahib qapını açıb çıxır…*

**SAHİB –** Nədi?
**ZÖHRƏ –** Xalangil gəlib. Düş, kömək elə, deyəsən, yükləri ağırdı…
**SAHİB –** *(çıxdığı otağın içinə çönür)* Dayday, sən proqramı perezaqruzka elə, mən indi gəlirəm…

*Sahib otağın qapını örtür, giriş qapısına tərəf keçib ayaqqabılarını geyib çıxır. Qadınlar iş görə-görə söhbətlərinə davam edirlər.*

**KAMALƏ –** Bacın uşaqlarını gətirməyib ki?
**ZÖHRƏ –** Yox, keçən həftə axırı yol açıldı, getdilər Türkiyəyə. Yoxsa dərsləri qalmışdı yarımçıq.
**KAMALƏ –** İkisi də eyni yerdə oxuyur?
**ZÖHRƏ –** Yox, bir yerə salmaq istədilər o vaxt, alınmadı…

*Elə bu vaxt qapı açılır, Zöhrənin bacısı Xumarə, əri Elxan müəllim içəri daxil olurlar… Elxanın əlində səliqəli kulyok var, içində iki içki şüşəsinin olduğu hiss olunur.*
*Zöhrənin bacısının və ərinin geyim-kecimindən hiss olunur ki, daha imkanlı adamlardır…*
*Onların gəldiyini görüb, Sevil də qulaqcığı çıxardır, gəlib onlarla salamlaşır, qucaqlaşırlar…*

**XUMARƏ –** Böyük qız olasan, o gün olsun, toyuna gələk…

*Elxan müəllim əlindəki kulyoku kənardakı yazı stolunun üstünə qoyub, Teymur kişiyə yaxınlaşıb salamlaşır, yanındakı kresloda oturur…*

**ELXAN MÜƏLLİM –** Necəsən, Teymur kişi…
**TEYMUR KİŞİ –** Çox sağ ol, sən neynirsən?
**ELXAN MÜƏLLİM –** Sağ ol, babatam… Yenə zillənmisən televizora? Əşi, çox fikir vermə onlara, onsuz da hamısı yalandan danışır… Bir kəlmə düz söz demirlər…
**TEYMUR KİŞİ –** Guya başqa yerdə düz danışan var? *(əlini yellədir)* Heç olmasa, başım qarışır…

*Əlində yekə bir şəkilli qutu olan Sahib ləhləyərək otağa daxil olur. Ağır qutunun üstündəki rəngli qab şəkillərindən bilinir ki, nəsə bahalı mətbəx servizidir.*
*Sahib gəlib qutunu stolun üstünə qoyur…*

**SAHİB –** Belim sındı e… Elə bil armatur doldurublar içinə…

*Sahib qutunu qoyub təzədən qapıya tərəf gedir…*

**ZÖHRƏ –** Nəsə qaldı bəyəm?
**SAHİB –** Yox, küçədə maşını pis yerdə saxlamışam, çəkim divarın dibinə...

**ELXAN MÜƏLLİM –** Hə, bacardıqca sıx divara… Küçə çox dardı, yenə keçən dəfəki kimi güzgünü sürtərlər.

*Sahib başını tərpədib çıxır.*

**ZÖHRƏ –** Ay Xumarə, bu nədi belə?
**XUMARƏ –** Sevilçün cehizlikdi də… Təmiz çini qablardı. 24 persona. Ən axırıncı çıxan dizayndı. Avanqard…
**SEVİL –** *(uşaq marağıyla açır)* Ay da, «Madam Koko»dandı. *(xalasını qucaqlayır)* Çox sağ ol, xala... *(qabları çıxardıb baxmağa başlayır)* Nə qəşəngdi? Heç əvvəlkilər kimi deyil ey, tamam fərqlidi…
**KAMALƏ –** *(qabları götürüb baxır)* Hə, çox gözəldi… Sağlığına qismət. Şadlıqlarda işlədəsən.
**XUMARƏ –** Hələ bu stildə mətbəx servisi də sifariş vermişəm Karacadan... Gələn ay gətirəcəklər. Sabah bir hörmətli adamın evinə gəlin gedəndə, niyə xəcalət çəkəsən ki?

*Zöhrə maraqla qabları gözdən keçirən qızına baxır, üz-gözünü turşudur…*

**ZÖHRƏ –** *(kinayə ilə)* Aparıb səngərdə işlədərsən…

*Sevil tutulur, qaşları çatılır, amma heç nə demir…*

**KAMALƏ –** *(Zöhrəyə)* Yaxşı da...

*Xumarə başa düşmür, təəccüblə Zöhrəyə baxır…*

**XUMARƏ –** Səngər niyə?
**ZÖHRƏ –** Heç, fikir vermə, başqa söhbətdi…

*Sahibin otağından Zöhrənin qardaşı Aqşin də səsə çıxır, gəlib Elxanla salamlaşır, gəlib böyük bacısı Xumarəni də öpür…*

**XUMARƏ –** Uşaqlar hardadı bəs?

*Aqşin əlini yellədib heç nə demir, yenə Elxan müəllimin yanına qayıdır, stol çəkib oturur…*

**ZÖHRƏ –** *(Xumarəyə yavaşca )* İşin yoxdu, yenə qırıb-çatıblar bir-birini…
**XUMARƏ –** *(qaşları çatılır)* Axırda bu qızı boğub öldürəcəm ey. Pul davası eləyirdi, onu da həll elədik, indi nə istəyir e uşağdan?
**ZÖHRƏ –** Axır vaxtlar yaman içir... Sən də imkan elə, ciddi danış onunla…
**XUMARƏ –** *(qaşlarını çatır)* Həə? bilmirdim heç... Niyə ki?
**ZÖHRƏ –** Nə bilim ey, deyir işdə çox əsəbiləşirəm… Bəlkə Elxana deyəsən, yerini dəyişsin?

*Zöhrə ilə Sevil təzə servizi yığışdırırlar, Xumarə isə Elxanla Aqşinin yanına gəlir, nəvazişlə əlini Aqşinin ciyninə qoyur.*

**XUMARƏ –** Ay Aqşin, yenə işdə nəsə olub? Kefin yoxdu elə bil…
**AQŞİN –** Heç nə olmayıb… *(əlini yellədir)* Hər şey yaxşıdı.

**ELXAN MÜƏLLİM –** *(Aqşinə baxır)* Bəs onda dünən niyə inspektorlar şikayət eləyirdilər səndən?

*Aqşin diksinib Elxan müəllimə baxır…*

**AQŞİN –** Sənə də gəlib çatıb söhbət?

**ELXAN MÜƏLLİM –** Əlbəttə... Hamı bilir qaynımsan da... Ayağını əyri atan kimi gəlib mənə çatdırırlar… *(hiss olunur ki, ürəyi doludur, qalxıb gəzişərək danışır)* Baxıram o biri şöbə müdirlərinə, həsəd aparıram, hamısı yığıb qohumlarını, yaxınlarını başlarına, arxayın işləyirlər. İndi neynəyim, Allah mənə qardaş nəsib eləməyib. Səni özümə yaxın bilmişəm. Özümküsən də… Sənə eləməyib, kimə eləyəcəm ki? Sən də belə padvadit eliyirsən adamı…

**AQŞİN –** Bacarmıram ey, özümdən asılı deyil. Alınmır… Mən camaatın dərisini soya bilmirəm…

**ELXAN MÜƏLLİM –** *(qaşlarını yığır)* Deməli, biz camaatın dərisini soyuruq? *(pauza)* Yoxsa kimisə məcbur eləyirik ki, gəlib kredit götürsün? Pul lazım olanda, üstümüzə cumub min dəsmal ağlayırlar, qaytarmaq vaxtı çatanda biz pis oluruq?

**AQŞİN –** Heç biriniz başa düşmürsüz ey…

*Aqşin qalxır, siqaret yandırıb qapını açır, aynabəndə çıxır…*

**XUMARƏ –** *(Elxan müəllimə)* Sən də yola ver də… Getmə uşağın üstünə...

**ELXAN MÜƏLLİM –** İyirmi ildi yola verirəm də… *(sanki öz-özünü sakitləşdirməyə çalışır)* Heç öz uşaqlarımı bu cür yola vermirəm, o cür ki, sizin bu əziz-xələfi yola verirəm. Elə bil balaca uşaqdı… Uşaqlıqdan çıxardıb otuzdurmusuz başınızda, indi bacara bilmirsiz… O vaxt başına düşmüşdü, gərək qabağını kəsməzdiz, çıxıb gedərdi Raufun yanına, bir-iki il qarda-şaxtada, səngərdə palçığın içində oturardı, ağlı gələrdi başına, indi naşükürlük eləməzdi…

**XUMARƏ –** *(üz-gözünü turşudur)* Eeh, ay Elxan, aman-zaman bir dənə qardaşımız var, deyirsən, onu da aparıb saxlayaq erməninin gülləsinin qabağında?

*Xumarə yenə stolun başına qayıdır…*
*Zöhrə artıq süfrəni bəzəyib, salatları düzüb…*

**XUMARƏ –** Elə bunları hazırlamısan?

**ZÖHRƏ –** Hə də… bəs deyil ki?

**XUMARƏ –** Aaa, o boyda adamları qonaq çağırmışam, indi deyirsən belə çıxaq qabaqlarına? Əsgər yeməkxanası deyil ee… Ayıbdı axı.

**KAMALƏ –** *(müdaxilə edir)* Nə olub ki süfrəmizə? İki cür yemək, üç cür salat...

**ZÖHRƏ –** Hə də. Aş da asmışam. Dolma da hazırdı… Nə qədər yeyəcəklər ki?

**XUMARƏ –** Məsələ az-çoxda deyil ey… Afa xanım hər şeyə fikir verəndi. Gərək süfrədə rəngarənglik ola … *(fikirləşir)* Elxan, tez zəng elə dostuna, restorana… Təcili bəzi şeylər lazımdı, hazırlasınlar, Sahib gedib götürsün…

**ZÖHRƏ –** Ay qız, lazım deyil, neynirsən? Uzağı, özüm təzədən bir-iki şey doğrayaram…

**XUMARƏ –** Yox ey, vaxt yoxdu, bir azdan gələcəklər…

*Elxan müəllim telefonunu açıb yığır, salamlaşır.*

**ELXAN MÜƏLLİM –** Akif, telefonu verirəm Xumarəyə, nəsə təcili sifarişləri olacaq. *(telefonu arvadına uzadır)*

**XUMARƏ –** *(telefonu götürür)* Salam, Akif qardaş, necəsiz... deməli, bizə təcili assorti kabab lazımdı, on nəfərlik… Hə, mütləq… Balıq da olsun… Sonra beş-altı cür salat yığ… Sveji… Sonra sizdə eksklüziv desertlər olurdu e… Krevetka-filan… Hə, onlardan da… Şirniyyat, desert də qoyarsan. Bir sözlə, ən qeyri-adi, ən maraqlı nə varsa, hazırla, uşağı göndəririk…

*Xumarə telefonu Elxana verir…*

**XUMARƏ –** Sən canın, restoranın yerini Sahibə başa sal, gedib gətirsin hər şeyi…

*Elxan başını tərpədib çıxır…*

**ZƏHRA –** *(yavaşca bacısına)* Deyirsən, krevetka olmasa, qızımızı bəyənməyəcəklər?

*Hər ikisi gülürlər…*

*Teymur kişi sakit səslə işləyən televizora zillənib, qulağı ağır eşitdiyindən, sanki otaqda gedən söhbətlərin də fərqlində deyil…*

**XUMARƏ –** *(nəsə fikirləşir)* Yeməyi həll elədik, qaldı bir dənə Sevillə danışmaq… *(divanda oturan Sevilə çönür)* Qızım, gəl otur burda, sözüm var sənə…

*Sevil gəlib stol arxasında oturur, sakitcə danışmağa başlayır.*

**XUMARƏ –** Anan yəqin ucundan-qulağından deyib sənə. Elxanın qohumu var idi e, Afa xanım. Yayda bizdə bağda qalanda görmüşdün. Onun oğlu Nurlanın gözü yamaq tutub səni… Köhnə kişilər demişkən, bir könüldən min könülə aşiq olub. Yaydan bu yana adın dilindən düşmür… Elə hara çatır, deyir ki, Sevil yaraşıqlı, ağıllı, savadlı, intellektual qızdı, fikirləri mənə yaxındı, söhbətimiz tutur…

**SEVİL –** *(Soyuqluqla)* Nə olsun?

**XUMARƏ –** *(gözlərini döyür)* Necə yəni nə olsun? Fikri ciddidi… Anası da etiraz etmir. Düzdü, hələ deyəsən, atasına deməyiblər...

**KAMALƏ –** *(kinayə ilə müdaxilə edir)* Bəlkə heç atası razılaşmadı? Bütün günü səngərdə, toz-torpağın içində olan bir zabitlə quda olmaq istəmədi?

*Zöhrə Kamaləyə göz ağardır, Xumarə isə kinayəni başa düşmür…*

**XUMARƏ –** *(fikirləşir)* Yoox, məncə etiraz eləməz... Düzdü, çox imkanlı adamdılar, burda da, Almaniyada da biznesləri var, amma inanmıram yeganə oğlunun istəyinin əleyhinə getsin… *(sanki təskinlik verir)* Bir də ki əsas Afa xanımdı. Onun da çox ürəyinə yatıb Sevil, ailənizlə də bağlı hər şeyi soruşub öyrəndi məndən. Neçə dəfə eşitdirdi ki, gedib yuxarılardan qız alacağıq, ərköyünün biri gəlib düşəcək evin içinə, öz hikkəsini yeridəcək. Ondansa aşağıdan olsun, başımız ağrımasın…

*Xumarənin sözü Zöhrənin xətrinə dəysə də, hiss elətdirmir, lakin Kamalə yenə özünü saxlaya bilmir…*

*Onlar danışdığı müddətdə Elxan müəllim də içəri qayıdır, keçib divanda oturur…*

*Qadınların söhbəti isə davam edir…*

**KAMALƏ –** Biz aşağı niyə oluruq ki? Elə bircə polkovnik Rauf Mirbabayevin adı bəsdi üstümüzdə.

**ZÖHRƏ –** *(əsəbiləşir)* Əlbəttə, aşağı niyə oluruq? Hamıdan yuxarıyıq… Qızıllarım, brilyantlarım... Qapımızda cüt-cüt maşınımız, üçmərtəbəli villamız, ispanski santexnikamız. Tanınmış hərbçi evidi də… *(əlini yellədir)* Odey, neçə dəfə televizordan zəng eliyiblər, hərbçi ailəsindən müsahibə alırıq, nə bilim, film çəkirik… Hamısını rədd eləmişəm… Bu ev-eşikdə nə çəkiliş? Bir fərli təmiri də yoxdu. Televizorda bütün millət görəcək... Adam xəcalət çəkir.

**XUMARƏ –** Bizim ünvanı verərdiz, gələrdiz bizdə çəkərdilər də...

*Aqşin siqaretini çəkib içəri qayıdır, keçib otağın o biri başında, Teymur kişinin yanında oturur, telefonda qurdalanmağa başlayır…*

**SEVİL –** *(çiyinlərini çəkir)* Nə olub ki evimizə? Şükür Allaha, səliqəsi-səhmanı. Gül kimi evdi...

**ZÖHRƏ –** Sən Allah, qoy oturmuşuq. Səliqə-səhman. Elə divarların aboyundan bilinir səliqəsi. İyirmi ildi dəyişmir. Sapsarı olub... *(qonşu villanı göstərir)* Səliqə-səhmanlı ev belə olar, üç mərtəbə, üstündə mansarda... Özü də par-par yanır… Yiyəsi də kimdi, kimdi, yol polisində serjant. Adamın ciyəri yanır ey… Şoferlərdən pul ala-ala gör nələr tikib... *(başını yellədir)* Sən bir gəlirə bax ey… Serjantları belə ev tikirsə, gör onların polkovnikinin nə cahü-cəlalı var… Yoxsa bizim polkovnik il boyu da tozun-torpağın, palçığın içində… Heç olmasa qonşusuna baxıb ibrət götürərdi…

**AQŞİN –** *(dözə bilməyib müdaxilə edir)* İndi neynəməlidi ki Rauf? Səngərdə əsgərdən pul yığmalıdı?

**KAMALƏ –** Hə də, mənim qardaşım formanı ona görə geyib ki, vətənimizi qorusun, torpaqlarımızı alsın…

**ELXAN MÜƏLLİM –** *(gəlib süfrədən konfet götürüb ağzına atır)* Əslində, ədalət var da burda… O qonşu serjant da almaqçün forma geyib, mənim bacanağım da… *(zarafatla)* Bəs nə görürük? O serjant öz boynuna düşəni ala bilir… Mənim bacanağım ala bilmir… Ona görə də serjant o cür villa tikə bilib, amma siz bu şəraitdə yaşayırsız… *(gülür)*

**KAMALƏ –** Lazım gəlsə qardaşım da alacaq…

**ZÖHRƏ –** İndi daha biz neynəyək ki, lazım kişi iyirmi beş ildi gəlib çıxmır heç cür… Elə hər dəfə üç-dörd gün yalandan atışırlar, sonra da bir dənə medal taxırlar yaxasına, vəssalam. O medalların yerinə, heç olmasa bir dənə babat ev verərdilər.

**AQŞİN –** Hərbçi evi neynir? *(kinayə ilə)* Evi verirlər müğənniyə, rəqqasəyə…

**ZÖHRƏ –** *(hikkəylə)* Elə düz də eləyirlər… Onların heç olmasa adamlara nəsə xeyri var, toy-nişanlarını, xeyir işlərini yola verirlər… Hərbçinin nə xeyri var ki?

**KAMALƏ –** *(qaşlarını çatır)* Aa, o nə sözdü deyirsən… Bəs vətəni…

**ZÖHRƏ –** Bəsdi görüm, əşi… *(əlini yellədir)* Elə vətən də onların vətənidi, ölkə də onların ölkəsidi... Çünki pulları var…

**ELXAN MÜƏLLİM –** İstəsəydiz, onlardan da yaxşı dolanardız… Hələ on il əvvəl Raufa dedim ki, boş ver o hərbini, gəl bizdə bütün bank şəbəkəsinin təhlükəsizlik xidmətinin rəhbəri eləyək səni. Razılaşmadı. Hələ bir ağır-ağır üzümə də vurdu ki, mən orda torpağı qoruyuram, deyirsən, torpağı atım gəlim, sizin pullarınızı qoruyum? Hətta incidi məndən… Odey, onun yerinə bir dənə keçmiş polis mayorunu götürmüşük, ayda beş-altı min maaş alır…

**ZÖHRƏ –** Halal xoşu olsun. Çünki ağıllı adamdı… Daha bizimkilər kimi yox...

*Zöhrə deyinə-deyinə mətbəxə keçir, Kamalə də bəzi qabları götürüb, onun dalınca mətbəxə gedir…*

*Xumarə bacısının dalınca baxır, köksünü ötürür, yenə də Sevilə çönür…*

**XUMARƏ –** Bax, qızım, bilirsən ki, biz sənin yaxşılığını istəyirik. Vallahi ki, illərlə axtarsan, belə şans ələ düşməz…

**SEVİL –** *(tərəddüdlə)* Axı mən hələ ərə getmək istəmirəm… Təzə girmişəm instituta…

**XUMARƏ –** Narahat olma, o barədə də söhbətimiz olub. Səni perevod eləyəcəklər Almaniyadakı institutlardan birinə, orda bitirəcəksən… Hətta qardaşınla da bağlı söhbət eləmişik. Onun da xaricdə magistraturada oxumağına kömək edəcəklər...

*Zöhrə əlində qablar qayıdır, son sözləri eşidir…*

**ZÖHRƏ –** Hə də, get özün yerbəyer ol, qardaşını da çəksinlər yanlarına… Mən də heç olmasa sizdən arxayın olum. Qoca vaxtında rahat nəfəs alım... Arvadların içində danışanda, heç olmasa, deyim ki, Almaniyaya qızımın yanına getmişdim, Fransada oğlumun yanından gəlirəm… *(köksünü ötürür)* Yoxsa adam xəcalət çəkir…

**XUMARƏ –** Bax, özün ağıllı, kamallı qızsan. Sən Allah, düzünü de. Pis oğlan idi Nurlan? Yayda neçə gün bizdə bağda olduz, özüm fikir verirdim, nə qədər söhbət elədiz…

**SEVİL –** *(ani düşünüb təsdiq edir)* Düzünü deyim, doğurdan da çox ağıllı oğlandı...

*Sevil danışdıqca Zöhrənin gözləri parıldayır, sanki ümid gəlir ona, əl saxlayıb qızına qulaq asır…*

**SEVİL –** *(davam edir)* Dünyagörüşü çox genişdi, hər şeydən xəbəri var, bilmədiyi sahə yoxdu. Hərçənd ki, fikirlərimizin çoxu üst-üstə düşmədi, amma bir şey xoşuma gəldi, hiss elədim ki, xaotik insan deyil, həyatda konkret məqsədi var, o məqsədə çatmaqçün dəqiq planı var… Şəxsən mən inandım ki, o, mütləq qabağa gedəcək, həyatda istədiyinə çatacaq… *(bunu deyib ani pauza verir və xalasına çönür)* Amma mən onu sevmirəm axı…

*Bayaqdan üzü gülümsəyən Zöhrə qızın son sözündən sonra özündən çıxır.*

**ZÖHRƏ –** Cəhənnəmə sevmirəsən… Gedərsən, sevərsən...

**AQŞİN –** *(bacılarına)* Nə dirəmisiz ey uşağı... İstəmir də… On doqquzuncu əsrdi ki, zorla ərə verəsiz? Boş buraxın, qoy öz həyatını özü qursun…

**ZÖHRƏ –** Hə də… Boş buraxım, əl çəkim. *(yenə əsəbiləşir)* Bu da getsin qoşulsun hərbçiyə, ömrünü çürütsün… Özüm iyirmi il çəkmişəm, indi də bunun dərdini çəkim… Atasından çəkdiklərim bəsdi mənə…

**SEVİL –** *(tutulur)* O nə sözdü deyirsən… Ata pis olub bəyəm? Düzünü de də… Pis olub?

**ZÖHRƏ –** *(səsi ağırlaşır)* Elə dərd də odu ki, pis olmayıb, yaxşı olub… *(stola çökür, doluxsunur.)* Yaxşı olub ki, iyirmi ildi ən çətin yerlərə atırlar onu, ayağından sapoq çıxmır, yağışın-qarın içində… Yaxşı olub ki, fikirdən, narahatlıqdan saçları ağarıb… Hər dəfə gələndə ürəyim ağrıyır… Elə bil sıxıb suyunu içirlər… Hələ çox şeyi açıb demir mənə. Amma bilirəm axı… On beş il oralarda keçib ömrüm. Görürəm ki, yaxşı deyil vəziyyəti. Çox fikir eləyir, hər şeyi salır ürəyinə. Nə olacaq, necə olacaq bu işlərin axırı? Nə qədər səngərdə oturub erməniyə baxacaqlar? Haçan imkan verəcəklər ki, gedib ata-babasının qəbrini o zibillərdən təmizləsinlər? Bəlkə daha heç vaxt heç nə dəyişməyəcək? Bəlkə artıq əlimizi üzməliyik o yerlərdən? Bu qədər fikrə adam ürəyi dözər? *(köksünü ötürür)* Kaş pis olaydı… Pis olardı, arsız, bivec olardı, mən də onun bu qədər fikrini çəkməzdim… Pis olaydı, orda da imkan tapıb hərəkət eləyərdi, bizə bir gün ağlayardı… *(dözə bilmir, Sevilə)* Sən də gedərsən hərbçiyə, bütün bu zülümləri yaşayarsan…

*Xumarə xanım sanki söhbəti indi tutur.*

**XUMARƏ –** Dayan görüm, Zara, yaxşı başa düşmədim... Nə hərbçi? Deyəsən, nəyisə gizlədirsiz axı məndən…

**ZÖHRƏ –** *(sanki tərəddüd edir)* Əşi, nə gizlədəcəm e… Bu gözəlimiz gedib Azad müəllimin oğluyla dostlaşıb… Bizim köhnə qonşumuz…

*Xumarə sanki çox bəd xəbər almış kimi, stula çökür…*

**XUMARƏ –** Vay-vay… *(Sevilə çönür)* Görüşürsüz?

*Sevil utanıb başını aşağı salır…*

**AQŞİN –** Lap elə tutalım, görüşürlər, nə olsun ki? Uşaq deyil ki… Böyük qızdı…

**XUMARƏ –** Sən dayan görüm e… *(Sevilə)* Yoox, belə olmaz… Elə günü bu gün onunla bütün əlaqələri kəsirsən… Nə qədər ki, hələ söhbət çox yayılmayıb, bu məsələni ört-basdır eləmək lazımdı. Bir daş altdan, bir daş üstdən. *(başını yellədir)* Biz neçə vaxtdı əlləşirik, aranı düzəldirik, səninçün bu cür gözəl kombinasiya qurmuşuq…

**AQŞİN –** Futbol oynayırlar ey elə bil… Belə kombinasiya quransız, göndərək sizi yığma komandaya, qaldırın ayağa yazıqları…

**XUMARƏ –** *(əsəbiləşir)* Ay Elxan, sən Allah, bir nərddən-filandan oynayın, bunun başı qarışsın, yoxsa arvad işlərinə burnunu soxur, əsəbiləşdirir adamı… *(Sevilə çönür)* Fikir vermə... *(davam edir)* Sən gərək uşaq kimi hərəkət eləməyəsən axı… Cavanlıqdı, başa düşürəm, adamın ürəyi çox şey istəyər. Ancaq ağıllı adam odu ki, oturub məntiqlə fikirləşsin, görsün hansı yol onunçün daha məsləhətlidi. Lazım olsa, ürəyinin qapısını qıfıllayasan, həyatının proyektini qurasan...

**AQŞİN –** Sizinçün adamların həyatı elə proyektdi də. Həyat deyil ki…

*Elxan servantın üstündən nərdi götürüb açır, Aqşini bu tərəfə çəkir…*

**ELXAN MÜƏLLİM –** Sən bunlara baş qoşma, onsuz da axırda öz bildiklərini edəcəklər…

*Sakitcə televizora baxaraq, ara-sıra mürgüləyən Teymur kişinin yanında jurnal stolunun arxasında otururlar…*

**ELXAN MÜƏLLİM –** *(bərkdən)* Teymur kişi, mane olmuruq ki sənə?
**TEYMUR KİŞİ –** Həə?
**ELXAN MÜƏLLİM –** Deyirəm mane olmuruq ki?
**TEYMUR KİŞİ –** Yooox, işinizdə olun… Oyunçu aparsın…

*Onlar otağın o biri küncündə nərd atmağa başlayırlar…*
*Qadınlar isə öz aralarında sakit səslə söhbət edirlər ki, arxada nərd oynayan kişilər çox eşitməsinlər…*
*Zöhrə meyvə doğraya-doğraya arada müdaxilə edir…*

**XUMARƏ –** Bu saat tək sənin yox, qardaşının da taleyi sənin əlindədi… İkiniz də gedib orda barmağınızı ilişdirərsiz, qalıb yaşayıb işləyərsiz. Burda qalıb ömrünüzü çürütməyəcəksiz ki?
**SEVİL –** Nə bilim… *(tərəddüdlə)* Bilmirəm… Adam sevmədiyi insanla necə yaşaya bilər axı?
**XUMARƏ –** Eeeh, o vaxt anan da belə deyirdi… Nə qədər başa saldım, xeyri olmadı… Öz bildiyini elədi...
**ZÖHRƏ –** Uff… *(dişlərini sıxır)* Yadıma salma e, sən Allah… Başım işləmədi, qulaq asmadım sənə…
**XUMARƏ –** Hələ məni lağa qoyurdu, deyirdi belə də ərə getmək olar? Elə gəlib dedilər ki, doktor Kərimlinin oğlu səni istəyir, o saat da razılaşdın…
**ZÖHRƏ –** Düz deyir. Rəhmətlik anam gəlib başa saldı, dedi yaxşı ailədilər, oğlan da savadlı oğlandı, nazirlikdə işləyir… Xalan da ağıllı idi də. O saat dedi ki, əgər siz məsləhət bilirsizsə, gedərəm… Amma mən? Yoox, dirəndim… Nə danışırsız? Adam da görməsə, sevməsə, ürəyi titrəməsə, qulağından tüstü çıxmasa, necə ərə gedə bilər ki? Budey, bu da nəticəsi… İndi sən də otur, fikirləş, gör mənim yolumla getmək istəyirsən, ya xalanın yoluyla… *(Sevil nəsə demək istəyəndə anası imkan vermir)* Amma özünü öldürsən də, qoymayacam mənim yolumla gedəsən… *(doğradığı almadan bıçağın ucunda ona uzadır)* Götür, alma ye…
**SEVİL –** *(əsəbi)* Ee, istəmirəm…
**XUMARƏ –** Bax anana? Başa düş ki, sonrakı peşmançılıq fayda verməyəcək… Gedib düşəcəksən ya Murovun qar-şaxtasına, ya da Beyləqanın toz-torpağının içinə… Sənə lazımdı? Fikirləş, gör Frankfurtun parkları yaxşıdı, yoxsa Beyləqanın ilan mələyən çölləri?
**SEVİL –** Bilmirəm. *(fikirli)* Heç nə bilmirəm. *(tərəddüdlə)* gərək düşünüm.
**ZÖHRƏ –** Yaxşı, düşün. Amma çox yox, beş-altı gün… *(meyvələri ayırır, yarısını stolun üstünə düzür, yarısını da başqa qaba yığır)* Apar qoy kişinin əlinin altına. Həkim tapşırıb, meyvə çox yeməlidi.

*Sevil fikirli halda meyvə qabını götürüb babasının yanına gəlir, kişinin yanındakı stolun üstünə qoyur, divanda oturub fikrə gedir…*

**ZÖHRƏ –** Amma sən nənəvin goru, qonaqlar gələndə, belə qaşqabağını salladıb oturma... Zəhrimar tökülür sifətindən…

**SEVİL –** *(Dodaqlarını əyir)* Belə oturum? Yaxşı... Oturaram…

*Elə bu vaxt əlində konfet qabları olan Kamalə içəri girir, Sevilə çönəndə görür ki, ağzı qulaqlarının dibinə çatıb... Başa düşmür…*

**KAMALƏ –** O nə sifətdi?

**SEVİL –** *(ağzını əyərək)* Tapşırıblar ki, qonaqlar gələndə, sifətimdə təbəssüm olsun… Mən də məşq eləyirəm…

*Kamalə başını yellədərək konfetləri stolun üstünə qoyur...*

**KAMALƏ –** *(Zöhrəyə)* Düyü dəm aldı, söndürdüm altını...

**ZÖHRƏ –** Xəşil olmadı?

**KAMALƏ –** Yox, diri qalıb…

**XUMARƏ –** *(Kamaləyə yavaşca)* Sənin sözünü eşidir. Sən də başa sal da, qoy şadlığına şitlik eləməsin… O cür şans düşüb. Niyə əldən verək axı? Camaat özünü öldürür ki, bir dənə belə müştəri çıxsın qızıyçün…

**KAMALƏ –** Mən heç nə deyən deyiləm… Bu, şəxsi məsələdi. Özü qərar qəbul eləməlidi. Məndən olsa…

**ZÖHRƏ –** *(sözünü kəsir)* Səndən olsa, öz gününə salarsan onu… Şəxsi məsələ… Yox bir… *(əlini yellədir)* Sizə söz başa salmaq mümkün deyil... *(Saata baxır)* Vaxt nə tez keçir ey, bunlar bir azdan gələcəklər, mən heç üst-başımı səliqəyə salmamışam…

**XUMARƏ –** Hə, mən də bir güzgüyə baxım… Bunlar hər şeyə fikir verəndilər ey… Sahib restorandan yeməkləri gətirənəcən, heç olmasa, özümüzü səliqəyə salaq…

*Zöhrə ilə Xumarə tez o biri otağa keçirlər. Kamalə də çıxır…*

*Sevil fikirli halda gəlib küncdəki işləməyən iri saatın qarşısında dayanır, çiynini saata söykəyib fikrə gedir, əliylə saatın yekə kəfkirini yellədir… İri kəfkir bir az yellənib dayanır…*

*Elxanla Aqşinin nərd oyunu isə davam edir, nəhayət, Aqşin əsəbiliklə daşları çırpır...*

**AQŞİN –** Sən də elə deşik axtarırsan tutmağa… bezdim ee.

**ELXAN MÜƏLLİM –** Nə oldu? Bir dənə mars olan kimi həvəsdən düşürsən… Adam prinsipial olar…

**AQŞİN –** Əşi nərd olan şeydi ki, ona görə prinsip aparasan... Oyundu da…

**ELXAN MÜƏLLİM –** *(Qalxır)* Elə həyat da oyundu da... Özün həmişə demirdin… *(sanki nəsə xatırlayır, Sevilə çönür)* Xalangil hara getdi?

**SEVİL –** O biri otağa keçdilər…

**ELXAN MÜƏLLİM –** Bir zəng eləsin, görək bunlar haçan gələcək də? Acından öldüm ki mən… Səhər də imkan vermədi bir tikə yeyim, tələs-tələs çıxartdı məni evdən…

*Elxan dodaqaltı deyinə-deyinə qadınların keçdiyi otağa keçir…*

*Sevil şüşəbəndin qabağına keçib həyətə baxır…*

**AQŞİN –** Sən niyə geyinib-kecinmirsən?
**SEVİL –** İstəmirəm…

*Aqşin pərdənin arxasında gizlətdiyi içki şüşəsini çıxardır, stəkana töküb içir, yenə pərdənin arxasına qoyur, gəlib Sevilin yanında dayanır, bayıra baxır. Ağır sükut çökür…*

**AQŞİN –** Heç kimə fikir vermə. Uşaq deyilsən… Sevmədiyin adamla ailə qurmağın axırı yoxdu. Məni də o vaxt çox bezdirdilər. Amma öz fikrimdən dönmədim…
**SEVİL –** Bəs onda niyə həmişə didişirsiz? *(sanki tərəddüdlə)* Bəlkə onların dediyini eləsəydin, daha yaxşı olardı?
**AQŞİN –** Hə, düzdü, Elmiranın xasiyyəti də ipək deyil, çox emosionaldı. Mübahisələrimiz də, narazılıqlarımız da çox olur. Amma üç gün keçir, yenə sakitləşirik, hər şey qaydasına düşür. Niyə? Çünki ortada sevgi var, mənəvi bağlılıq var… Bir-birimizin ən pis xasiyyətlərinə də dözürük. *(qəribə şəkildə gülümsünür)* Sevginin elə gözəlliyi də bu dava-dalaşdadı da. O mahnı necə idi? Küsməyin, sonra barışmağına…
**SEVİL –** *(gülümsünür)* Ayrılıq heç kimə qismət olmasın, Küsüb barışmağın öz ləzzəti var?
**AQŞİN –** Hə, elədi… Düz deyiblər… Arada belə gərginliklər olanda, adam bir-birinin qədrini daha yaxşı bilir… Yoxsa ki, odey, Xumarə… Evdəkilər verdi, bu da gözünü yumub getdi, heç vaxt evlərində nəsə dava-dalaş olmayıb, hər şey sakit, hər şey hamar…
**SEVİL –** *(yenə tərəddüdlə)* Pisdi ki?
**AQŞİN –** *(acı-acı gülümsünür)* Nəyi yaxşıdı? Bütün el-aləm bilir ki, Elxan bu iyirmi ildə səkkiz dənə məşuqə dəyişib, Xumarə də deyir ki, Elxan neynəyirsə, eləsin, əsas budu ki, pulum gəlir, evlərim var, işim var, uşaqların bir problemi yoxdu... Vəssalam… *(əlini yelləyir)* Guya bilmirsən ki?
**SEVİL –** *(köksünü ötürür)* Hə, bilirəm…
**AQŞİN –** Amma anan o vaxt istədiyinə getdi. Ona görə də bütün çətinliklərə dözdü… *(başını yelləyir)* Bilmirəm indi hardan böyninə düşüb ki, sənə Xumarənin həyatını yaşatdırsın… Heç cür beyninə girmir ki, sən həyatı yaşaya bilməzsən, çünki Xumarənin qızı deyilsən, onun qızısan… *(gəzişir)*

*Aqşin çönüb görür ki, Sevil sanki anlaşılmaz baxışlarla ona baxır…*

**AQŞİN –** Bağışla, ürəyim dolu idi, yordum səni… Bilirəm, sən yeniyetmə qızsan, belə şeyləri tam başa düşə bilməzsən… Allah eləsin ki, heç vaxt başa düşməyəsən…
**SEVİL –** *(kresloda oturur)* Dəhşətsiz ey… Hərəniz bir söz deyirsiz, adamın bütün fikirləri dolaşır…
**AQŞİN –** Gözlə, atan gəlsin, o, nə desə, elə də edərsən…
**SEVİL –** *(ani düşünür)* Düz deyirsən… Mən də o fikirdəyəm… *(qətiyyətlə)* Qoy gəlsin, son sözü atam desin. O, nə desə, elə də olacaq…

*Hər ikisi susurlar…*

*Sükut çökür…*
*İşıqlar sönür*

## *4-cü səhnə*

*İşıqlar yanır…*

*Teymur kişi televizorun qabağında kanalları qurdalayır, ara-sıra yanındakı jurnal stolunun üstündəki meyvələrdən götürüb yeyir…*

*Aqşin də televizora baxsa da, bilinir ki, fikri başqa yerdədi…*

*Elxan şüşəbəndin bayır tərəfində kiminləsə telefonla danışır…*

*Evin qapısı açılır, əlində restoran çantaları olan Sahib içəri girir, gətirib stolun üstünə qoyur…*

**SAHİB –** Ay ana, hardasız? Gəlin, bunları yerbəyer eləyin də…

*Teymur kişi səsə çönüb nəvəsini çantalarla görür...*

**TEYMUR KİŞİ –** *(həyəcanla bərkdən)* O nədi elə? Rauf gəlib?

**SAHİB –** Yox, ay baba, qonaqlıq üçündü…

*Teymur kişi sakitləşib yenə televizora çönür…*

*Zöhrə ilə Xumarə bir tərəfdən, Sevillə Kamalə də o biri tərəfdən çıxırlar.*

*Zöhrə yeməkləri açıb yerbəyer edir.*

*Yeməkləri açıb şirniyyatları stola yığırlar, qəlyanatltıları isti yeməkləri Sevil mətbəxə aparır…*

**XUMARƏ –** *(Aqşinə)* Mənə bax, özünü bir az səliqəli apar. Ağlına nə gəldi danışma… Bunlar hər şeyə fikir verəndilər…

**AQŞİN –** *(ani düşünür, Zöhrəyə)* Skoç hardadı? Enlisindən var?

**SAHİB –** Hə, gətirim? *(şkafın siyirtməsini açır, enli skoçu çıxardır)*

**ZÖHRƏ –** *(birdən duruxur, Aqşinə)* Neynirsən ki?

**AQŞİN –** Ağzımı skoçlayım da… Birdən ağzım sözümə baxmaz, o boyda Almaniya imperatorluğunun səfirlərinin yanında biabır olarıq.

*Sahib gülür, skoçu dolabın üstünə qoyur...*

**XUMARƏ –** Skoçu sənin ağzına yox ey, ağlına yapışdırmaq lazımdı…

*Aqşin divana çöküb yenə telefonunda qurdalanır. Sahib də onun yanında oturur, pıçıltıyla nəsə danışırlar…*

*Zöhrə isə Kamaləyə yaxınlaşır.*

**ZÖHRƏ –** *(yavaşca)* Sən Allah, Xahiş edirəm, qızın taleyi həll olunur, sən də heç olmasa bir-iki saat dilini saxla, işlərimizİ korlama…

**KAMALƏ –** Mən nə deyirəm ki? Həmişə sözün düzünü demişəm, xətrinizə dəyib.

**ZÖHRƏ –** Demə də, qurban olum, nə düzünü, nə əyrisini. Heç nə demə…

**KAMALƏ –** Bəlkə birdəfəlik çıxım gedim?

**ZÖHRƏ –** Yenə başladın? (səsini yumşaldır) Yaxşı da, incimə, bilirsən ki çox narahatam qızın taleyi üçün… Təki sağ-salamat yerbəyer olsun, heç olmasa, onun fikrini çəkməyim.

*Elxan da aynabənddən otağa girir, Sahibin gəldiyini görür…*
*Sahib yaxınlaşıb maşının açarlarını ona verir...*
*Elə bu vaxt Xumarə xanımın telefonuna zəng gəlir…*

**XUMARƏ –** *(telefona baxır)* Sakit olun, Afa xanımdı, yəqin yaxınlaşıblar… *(telefonu qulağına sıxır, xüsusi əda ilə danışır)* Salam, salam canım, necəsiz? Gəlmisiz? Hə, elə orda olun, indi Elxan çıxıb qarşılayar sizi… Yaxşı, oldu canım, oldu, gözləyirik. *(telefonu qapadır)* Elxan, gəliblər, dedi supermarketin yanına çatmışıq. Qarşıla, gətir…

*Elxan cəld pencəyini geyinib çıxır…*
*Aqşin isə gedib Elxanın gətirdiyi kulyokdan içkiləri çıxardır, şərab və viski şüşələrini də stolu üsütünə qoyur.*

**AQŞİN –** Bu, başqa məsələ… *(qadınlara)* Bu qırmızılar sizin, bu birilər də kişilərin… Heç kim də içməsə, Teymur dayı ilə bala-bala vurarıq Sevilin sağlığına… *(bərkdən )* Hə, Teymur dayı. Vurarıq?
**TEYMUR KİŞİ –** *(adını eşidib çönür)* Kimi?
**AQŞİN –** Kimi yox, nəyi?
**TEYMUR KİŞİ –** *(gülümsünür)* Mənimki vurmaqdan keçib, ay bala… Elxanla vurarsız…
**AQŞİN –** Teymur kişi, bu ayrı şeydi e… Qana da xeyirdi, cana da.
**ZÖHRƏ –** Adə, baban yaşında kişidi, adam tapmısan zarafat eləməyə? Gəl keç bu yana…

*Aqşin şüşəni stolun üstünə qoyur, Sahibin yanına gəlir…*

**AQŞİN –** *(yavaşca)* Sənə icazə verirlər evdə vurmağa?
**SAHİB –** Yox, amma stolaltı işləmək olar…
**AQŞİN –** Əla, olsun stolaltı… Dayı-bacoğlu axırına çıxarıq bunların. Yoxsa Elxan əlli qram vurur, sonra Xumarə bir dəfə göz ağardır, Elxan əlini çəkir, mən də qalıram tək…

*Qapı açılır. Əvvəlcə Elxan müəllim, ardınca Afa xanım və oğlu Nurlan içəri daxil olurlar…*
*Afa xanımın geyimindən, ədasından hiss olunur ki, hamıya yuxarıdan aşağı baxan imkanlı bir qadındır…*
*Hiss olunur ki, Afa xanım evə də sanki müştəri gözüylə baxır, amma bəyənmir…*

*Xumarə ilə Zöhrə də çıxıb onları qarşılayırlar, xoşgəldin edirlər, Aqşin də gəlib salamlaşır…*
*Xumarə Sevilə göz eləyir, Sevil də yaxınlaşır, gülümsünərək Afa xanımla görüşüb öpüşür… Nurlan da əl verib Sevillə görüşür…*

**AFA XANIM –** Təbrik edirəm qızım, böyük qız olasan…

*Afa xanım oğluna baxır, Nurlan əlindəki hədiyyə çantasını Sevilə uzadır…*

**SEVİL –** *(gülümsəməyə çalışır)* Çox sağ olun... Əziyyət çəkmisiz… *(hədiyyəni alır)*

*Kamalə də mətbəxdən çıxır, Xumarə xanım onu da qonaqlara təqdim edir.*

**XUMARƏ –** Bu da Zöhrənin baldızıdı… *(Kamaləyə)* Afa xanım da Elxanın qohumudu…

**KAMALƏ –** Şadam, *(yüngül kinayə ilə)* Xumarə xanım o qədər danışıb ki sizdən…

**XUMARƏ –** Bu, Zöhrənin oğludu…

**SAHİB –** Xoş gəlmisiz.

**AFA XANIM –** Çox sağ olun... Hə, bir dəfə görmüşəm… Şad oldum.

**XUMARƏ –** *(Teymur kişini göstərir)* Bu da qaynatasıdı.

**TEYMUR KİŞİ –** *(bərkdən)* Xoş gəlmisiz.

**AFA XANIM –** Çox sağ olun.

**XUMARƏ –** *(qardaşını göstərir)* Aqşini də tanıyırsız, bizdə bir-iki dəfə görmüsüz.

*Aqşin salamlaşıb qəribə şəkildə təzim edir, Afa xanım təəccüblə baxır, lakin əhəmiyyət vermir.*

**XUMARƏ –** Gəlin, əyləşin, yoldan gəlmisiz.

*Qonaqlar stol arxasında əyləşirlər.*
*Xumarə Afa xanımın yanında oturur, Zöhrə süfrəyə qulluq etməyə başlayır.*

**ZÖHRƏ –** *(Kaməleylə Sevilə)* Gedin, çayları hazırlayın.

*Kamalə ilə Sevil mətbəxə tərəf gedirlər.*

**KAMALƏ –** Girən kimi elə baxır ki, elə bil müştəridi, ev almağa gəlib.

*Sevil başıyla təsdiq edir.*
*Onlar çıxırlar.*
*Aqşinlə Sahib də bir kənarda oturub, Nurlana baxaraq, öz aralarında nəsə pıçıldaşırlar, hiss olunur ki, stol arxasında çox ciddi görkəmlə oturmuş Nurlanı müzakirə edirlər.*

*Xumarə isə öz növbəsində Afa xanımla söhbətə başlayır.*

**XUMARƏ –** İşlər necə gedir? Artur müəllim necədi? Yaxşıdı?

**AFA XANIM –** Pis deyil. Düzdü, bu pandemiyaya görə, orda biznes bir az zəifləyib, ancaq tam boş buraxmaq da olmur, ona görə Artur hələ ki ordadı… Burda olsaydı, onu da götürüb gələrdim.

**XUMARƏ –** İnşaallah gələn dəfə o da gələr…

*Nurlanın diqqətini otağın küncündə yerə qoyulmuş iri kəfkirli qədim saat cəlb edir.*
*Qadınlar danışdığı müddətdə Nurlan sakitcə qalxır, gəlib saatın qarşısında dayanır, saata baxır…*
*Afa xanım da sınayıcı nəzərlərlə otaqdakılara baxır, sanki özüyçün hər şeyi təyin eləmək, məlumat yığmaq istəyir…*
*Bir neçə saniyə susurlar, ev sahibləri girib-çıxaraq stola qulluq edirlər…*

**XUMARƏ –** *(Nurlana, bir az bərkdən)* Doğurdan heç soruşmadım, necə gəlib çıxdız?

**NURLAN –** Tez tapdıq. Naviqator var da...

**XUMARƏ –** Yolda çox narahatlıq olmadı ki?

**AFA XANIM –** Narahatlıq deyəndə ki… *(bir az üzünü turşudur)* Trasda yaxşı gəldik, amma dönəndən sonra maşını o qədər silkələdi ki, başım hərləndi…

**ZÖHRƏ –** Həə, yolu deməyin. Söz veriblər ki, ilin axırınacan yolları təzədən çəkəcəklər…

**AFA XANIM –** Gələ-gələ baxdım ki, burda fərli ev-eşik elə iki-üç dənədi… Sanballı adamlar çox olsaydı, elə özləri atışıb qəşəng asfalt yol çəkdirərdilər... İndiyə qalmazdı...

*Afa xanımın gələn kimi belə narazı ifadə bildirməsi evdəkilərə yaxşı təsir etməsə də, heç kim büruzə vermir, yalnız Aqşin qurcalanır.*

**AQŞİN –** Sanballı adamların ən yaxşı bacardığı iş elə yol çəkməkdi də. *(gülür)* Eyni yerə hər ildə iki dəfə…

**XUMARƏ –** *(onun sözünü ağzında qoyur)* Hə, yol məsələsini deməyin… Elə Zöhrəgil neçə dəfə qonşulara dedilər ki, gəlin, özümüz pul yığaq, yolu düzəldək, amma çoxu çəkdi yaxasını bir kənara… *(başını yellədir)* Bizimkilərin bu xasiyyəti olmaya da…

*Kamalə ilə Sevil çayları gətirib düzürlər…*
*Zöhrə də şirniyyat gətirməkçün çıxır…*
*Hamı çay içərək söhbətə davam edirlər…*

**AFA XANIM –** Eh, nəyi qoyub, nə axtarırsız? Bizim binada ki hamısı imkanlı, hörmətli adamlardı… Ancaq nə olsun? Hər dəfə bir problem olanda, komendant qapı-qapı gəzib yalvarır, heç kim yaxın durmur… *(başını yellədir)* Mən deyəndə, Nurik əsəbiləşir… Gör heç orda belə şey olur? Ən xırda bir şey olan kimi, o saat hamı birləşib, həll eləyir…

*Zöhrə şirniyyat gətirib stolun üstünə düzür…*

**XUMARƏ –** Düz deyirsiz, *(ah çəkir)* Avropadı da... Bizimkilərin onlara çatmağına hələ çox var…

**AFA XANIM –** Hamısı şüursuzluqdandı, mədəniyyətsizlikdəndi…

**NURLAN –** Ay ana, o cür demə. Hirslənmək də lazım deyil. Niyə anlamaq istəmirsən axı... Onlar rasional toplumdu. Ona görə hər işdə dəqiqdirlər. Bizim mentalitetimiz başqadı… Bizim xalqın da təfəkkürü geri qalıb, inkişaf prosesi getdikcə, kollektiv məsuliyyət hissi də yaranacaq.

**AFA XANIM –** Hə də, *(gizli bir fəxrlə)* indi başlayacaqsan elmi işinin tezislərini deməyə? (gülümsünərək Xumarəyə) Frankfurtda doktorluq işi Yaxın Şərqdə milli münasibətlər mövzusundadı…

**NURLAN –** *(düzəliş verir)* Yaxın Şərqdə milli münasibətlərin iqtisadi əlaqələrə təsiri…

**AFA XANIM –** *(şirin bir əda ilə)* İndi daha bağışla da. Bütün adını yadımda saxlaya bilmirəm. *(şirniyyatı yeyərək)* Nə yaxşı bişiriblər bunu? Qəribə dadı var…

**XUMARƏ –** Hamısını Sevil özü hazırlayıb… İstəsəz, reseptlərini verər...

*Sevil diksinir, çaşıb qalır, restorandan gələn yeməklərin öz adına çıxarılmasından çaşıb qalır…*

**XUMARƏ –** *(Nurlana çönür)* Beynalxalq iqtisadi münasibətlər yaxşı ixtisasdı… İnşaallah, müdafiə edər, ağıllı oğlandı, onunçün bir elmi iş nədi ki?
**AQŞİN –** *(acı tərzdə)* Onlarçün yəni belə maraqlıdı bizim milli münasibətlər, bizim mentalitet? Heç tanıyırlar ki bizi? Heç bilirlər bizim ölkə hardadı?
**AFA XANIM –** *(başını tərpədir)* Düzdü, mən də bu sualı həmişə verirəm Nurikə… *(ədalı tonda)* Bizim milli münasibətlər heç mənimçün maraqlı deyil, o ki qaldı bir avropalı ola…
**XUMARƏ –** Hə də, özlərinin yüz dənə dərd-səri var…
**NURİK –** çox səhv fikirdi… Onlarda elmi sahə elə qurulub ki, dünyanın bütün regionlarını diqqətdə saxlamağa çalışırlar. Xalqların mentalitetini, aralarındakı münasibətlərini analiz edirlər, məlumat yığırlar ki, iqtisadi münasibətlər quranda bu informasiyalardan istifadə eləsinlər… Elə mənim elmi rəhbərim də təkid elədi ki, elmi işin böyük bir fəsli də Qafqazdakı milli-etnik münaqişələrin tarixinə həsr olunsun. Dedi sizə yaxın mövzudu, çox dərindən araşdırıb öyrənə bilərsən… *(Sevilə baxır)* Biz yayda Sevil xanımla bu mövzuda çox söhbət eləmişdik…

*Zöhrənin sanki yaralı yerinə toxunurlar, özünü saxlaya bilmir, müdaxilə edir.*

**ZÖHRƏ –** *(narazı səslə)* Əşi, burda araşdırmalı nə var ki? Axmaq bir münaqişədi də… İyirmi beş ildi hərəsi oturub öz səngərində, bizimkilər başını çıxardır, onlar atır, onlar başını çıxardır, bizimkilər atır… Vəssalam, bu da oldu sənin elmi işin. Rauf burda olanda gəl, nə qədər istəsən, danışsın səninçün… *(Xumarəyə baxır)* Yeməkləri gətirək?
**XUMARƏ –** Hə, yavaş-yavaş gətirin… *(Kişilərə tərəf çönür)* Gəlin, siz də əyləşin... Elxan səhər də heç nə yeməyib…

*Elxan, Aqşin və Sahib də stolun aşağı başında əyləşirlər. Teymur kişini də stolun başına gətirmək istəyirlər…*

**TEYMUR KİŞİ –** Mənim yerim rahatdı, dəyməyin, siz yeməyinizi yeyin…
**ZÖHRƏ –** Düz deyir, əziyyət verməyin. İndi Kamalə yemək düzəldər onunçün orda…
**TEYMUR KİŞİ –** Nuş olsun. Xeyir işlərə gələsiz…

*Hamı təşəkkür edir… Teymur kişi yenə asta səslə işləyən televizora zillənir.*
*Aqşin içkiləri də gətirib öz qabaqlarına qoyur, birinin ağzını açıb süzür, soyuq qəlyanaltılardan yeyərək, içirlər, hərdənbir Sahiblə nəsə pıçıldaşır, qadınların söhbətinə qarışmırlar.*

*Zöhrə ilə Kamalə yeməkləri gətirə-gətirə ara-sıra söhbətlərə müdaxilə edirlər…*

*Sahib də içmək istəyir, anası gözünü ağardır… Anası çıxandan sonra Sahib tez içib qədəhi kənara itələyir…*

*Elxan da az içir, amma Aqşin ara vermir, qısa fasilələrlə bir neçə qədəh içir. Nurlan isə Zöhrənin sözünün sonundakı fikri davam elətdirir…*

**NURLAN –** Hə, Sevil yayda demişdi, deyəsən, atası polkovnikdi, hərbi hissə komandiridi.
**AFA XANIM –** *(təəccüblə)* Polkovnik? Bəs general deyildi?
**ZÖHRƏ –** Yoo, onu kim dedi ki?

*Afa xanım Xumarəyə baxır…*

**XUMARƏ –** Yox ey, demişdim ki, bu gün-sabah general olacaq.

*Otaqdakılar təəccüblə Xumarəyə baxırlar, gözlərini döyürlər, hiss olunur ki, onun yalanından xəbərləri yoxdur...*

**AQŞİN –** *(təəccüblə müdaxilə edir)* Doğurdan? Vaxtı çatıb bəyəm?
**XUMARƏ –** *(ona çönüb göz ağardır)* Həə, məsələ artıq həll olunmaq üzrədi…
**AFA XANIM –** Hə, heç olmasa general olsa, yenə yaxşıdı…
**KAMALƏ –** *(yenə özünü saxlaya bilmir)* Polkovnik də aşağı rütbə deyil… Bunu almaqçün iyirmi il səngərlərdə olub…

*Bu dəfə Zöhrə ona göz eləyir…*

**ZÖHRƏ –** Düzdü, əziyət çox çəkib... Siz demişkən, heç olmasa, general versəydilər, bilərdi ki, əziyyətinə dəyib…
**AQŞİN –** *(yeyə-yeyə)* Hərəkətsiz oturan ordunun generalı olmaqdansa, döyüşən ordunun leytenantı olmaq daha yaxşıdı məncə…
**XUMARƏ –** *(süni şəkildə gülümsünür)* Aqşin də bezmədi bu siyasi jurnalistikadan da… Ay qardaş, artıq bir ildi bank işçisisən ey… Daha məqalə yazmırsan… *(yenə gülür)*
**NURLAN –** *(Aqşinə)* Amma mən sizinlə razı deyiləm… Milli konfliktlərin hərbi yolla həlli ən son vasitədir. Müasir dünya artıq çoxdan bu üsuldan əl çəkib. Bütün problemlər sivil müzakirələr yoluyla həll olunur və iqtisadi əlaqələrin yaranmağına start verilir. Hər iki tərəf öz mənfəətini götürür.
**AQŞİN –** Yaxşı, bəs əgər sən görsən ki otuz il keçir, amma heç nə həll olunmur? *(kinayə ilə)* Onda da vuruşmaq olmaz?
**NURLAN –** Bizim elmi rəhbərin gözəl bir sözü var. Sivil həlli olmayan problem yoxdur. Əgər çıxış yolu tapılmırsa, deməli, bu müzakirələri aparan adamlar bacarıqsızdı, dayaz düşüncəlidi. Onları dəyişmək lazımdı. Daha ağıllı adamlar önə çıxmalıdır, formatlar dəyişməlidi, müzakirələr yenə də davam etməlidir. Əvvəl-axır ortaq bir yol tapılacaq.
**XUMARƏ –** *(saxta heyranlıqla)* Maşallah, nə ağıllı danışır ey… Bir suyu da Elmar Məmmədyarova oxşayır… *(gülür, amma heç kim ona əhəmiyyət vermir)*
**ZÖHRƏ –** *(yavaşca)* Sən Allah, o bəduğurun adını çəkmə, düşər-düşməzi olar…
**AQŞİN –** Bəlkə də haqlısan, amma vətənin durumunu da düşünmək lazımdı axı... Çox vaxt xalq bu uzun-uzadı müzakirələrə dözə bilmir...
**NURLAN –** Ən əvvəl onu deyim ki, vətən anlayışına münasibət artıq tamam fərqlidi… *(birdən sanki nəsə düşünür, ətrafdakı adamlara çönür)* Yormuram ki sizi?

**XUMARƏ –** Yox, yox, çox maraqlı fikirlər deyirsiz…

**NURLAN –** *(Davam edir)* Əslində, bizim klassik mənada vətən dediyimiz məfhum müasir dünyada artıq yox kimidi. Hər adam harda istəsə ev alır, yaşayır, biznes yaradır, karyera qurur, işləyir, bir il burda, beş il orda. Artıq siyasi sərhədlər şərti xarakter alır… Misalçün, bizim ət məhsulları kombinatımız iyirmi ildi Almaniyada fəaliyyət göstərsə də, səkkiz ölkədə müəssisələrimiz var. Yəni hər bir kəs başqa bir ölkədə nəyəsə sahib olur, əlaqələr yaradır, işləyir, istədiyi vaxt şəraitə uyğun olaraq yaşayış yerini dəyişir, ev alır.

**ELXAN MÜƏLLİM –** Düzdü, bizim bankda da cavan kadrlardan xaricə işləməyə gedənlər çoxdu… Əksəriyyəti heç geri də qayıtmır. Birdəfəlik qalırlar orda.

*Bayaqdan ard-arda içdiyinə görə, artıq bir az sərxoş olan Aşqin yenə nəsə demək istəsə də, bu dəfə Xumarə imkan vermir…*

**XUMARƏ –** *(bir az ehtiyatla)* Həə, inşaallah, bizim də fikrimiz var ki, Sevili göndərək, elə orda oxusun…

**ZÖHRƏ –** Həə, mən də fikirləşirəm ki, burda qalıb ömrünü çürütməyə ehtiyac yoxdu… Bizim həyatımız getdi, heç olmasa, bunlar ağ günə çıxsınlar... *(Sahibi göstərir)* Oğlan magistrə hazırlaşır, o da getmək istəyir... Qoy ikisi də gedib orda oxusunlar, qalıb işləsinlər...

**AFA XANIM –** *(xüsusi ibarə ilə)* Əlbəttə… Narahat olmayın, hazırlaşsınlar, *(Zöhrəyə çönür)* Biz də bacardığımız qədər kömək edərik…

**ZÖHRƏ –** Çox sağ olun… Allah köməyiniz olsun…

*Kiçik pauza, yemək yeyirlər… Aqşin yenə içir, Xumarə ilə Zöhrə ona nə qədər işarə etsələr də, Aqşin əhəmiyyət vermir…*

*Kamalə isə özünü saxlaya bilmir.*

**KAMALƏ –** Yaxşı, bəs hamı çıxıb gedəcəksə, burda kim qalacaq ki? Ölkə tamam boşalsın?

**ZÖHRƏ –** Eeh, guya ölkə bizimçün neynəyib ki… Ölkənin dərdini çəkənlər çoxdu, biz öz dərdimizi çəkməliyik…

**AQŞİN –** Ölkə elə bizik də… Biz bəyəm ayda yaşayırıq? Biz olmasaq, hamımız çıxıb getsək, bu ölkə daha ölkə olmadı ki? *(sanki çıxış edirmiş kimi, barmağını yelləndir)* Vətəndaşı olmayan vətən içi boş konyak şüşəsi kimidi. *(stolun üstündən boş konyak şüşəsini götürür)* Zahirən qəşəng, yaraşıqlı, amma heç kimə lazım deyil… *(Elxana)* Sənə boş butulka lazımdı?

**ELXAN MÜƏLLİM –** Yox…

**AQŞİN –** Heç mənə də lazım deyil… *(Sahibə verir)* Apar at zibil qabına...

**ELXAN MÜƏLLİM –** Vətəndaşlıq getməklə qalmaqla deyil ki... O qədər dostlarım var ki, hələ doxsanıncı illərdə köçüblər xaricə, amma bizimlə o qədər birgə layihələr eləyirlər, ticarət münasibətləri qururlar, bura sərmayə yatırırlar. Əsl vətənpərvər oğlanlardı…

**NURİK –** Bəli, bu da elə böyük vətənpərvərlikdi. Elə biz də bu məsələdə çox aktiv fəaliyyətə başlamışıq.

**AQŞİN –** Doğurdan? Maraqlıdı, nə istiqamətdə?

**NURLAN –** İndi izah edərəm…

*Nurlan ağzını dəsmalla silir, qalxır, gəzişərək danışır…*

**NURLAN –** Bizim ordakı biznes fəaliyyətinin əsas seqmenqi əsl alman sosiskalarıdı… Ən yüksək keyfiyyətdə. Bizdə ən peşəkar texnoloqlar çalışır. Məhsullarımız dəfələrlə beynəlxalq sərgilərdə mükafatlandırılıb…

**AQŞİN –** Əhsən. Malades... Böyük nailiyyətdi. Hər sosiskaya nəsib olmur...

*Sevil gülür, amma tez özünü yığışdırır…*

**NURLAN –** Çox sağ olun... *(kiçik pauzadan sonra davam edir)* Amma biz çox düşündük ki, tutalım, Almaniyada ən yüksək keyfiyyətli məhsul istehsal edirik, bir çox ölkələrə ixrac olunur, çox bəyənilir, alınır… Bu, çox gözəl. Bəs onda niyə bizim tarixi vətənimizdə, öz ölkəmizdə bu cür gözəl məhsulların dadını bilməsinlər? Məgər bizim vətəndəki istehlakçılar ordakılardan əskikdilər ki? Axırda atama dedim ki, biz də vətənpərvər olmalıyıq… Qərara gəldik ki, birgə müəsisə yaradaq, burada əsl orqanik alman sosiskaları ixrac edək…

**ELXAN MÜƏLLİM –** Mən çoxdan deyirdim atana ki, bu işə başlamaq lazımdı. Biz də əlaqələr yaratmağa kömək edərik.

**NURLAN –** Bəli, çoxdan lazım idi. *(başını yellədir, mənalı şəkildə)* Siz bilirsiz ki, bizim xalqın hələ əsl sosiska dadından xəbəri yoxdu… *(ətrafdakılara baxır)* Biz burdakı marketlərdə satılan sosiskaları monitorinq edəndən sonra, mən dəhşətə gəldim… İlahi, onlara ümumiyyətlə sosiska demək olarmı? İçində nələr yox idi? Nə qədər kimyəvi maddələr, ət məhsullarının qalıqları, soya, nə bilim nə… O kimyəvi qatqılar orqanizmdə yüz cür xəstəlik yaradır, psixikanı pozur, insanın beynini kütləşdirir… Mən inana bilmədim ki, bizim insanlarımız bu sosiskaları yeyə bilir... Bunları heç heyvanlara da vermək olmaz… Biz isə əsl alman sosiskaları ixrac edəcəyik. Qoy xalqımız əsl sosiskanın dadını bilsin. Həm də onun tərkibindəki xeyirli maddələr, vitaminlər orqanizmə güc verir, adamın enerjisini yüksəldir, beyin fəaliyyətini stimullaşdırır. Çünki təbii orqanik xammaldan hazırlanır, keyfiyyətinə də nəzarət güclüdü… Brendin adı da AZ-MAN olacaq… Azər-Alman sözlərinin birləşməsi.

**XUMARƏ –** Aa, nə maraqlıdı… Əla ideyadı, yadda qalandı… Əhsən ...

**AFA XANIM –** Nurlan özü fikirləşib.

**ZÖHRƏ –** Doğurdan da əla tapıntıdı.

**NURLAN –** Təşəkkür edirəm. Çox sağ olun…Həqiqətən də, kim eşidirsə, xoşuna gəlir. Həm iki sözün birləşməsidi, həm də konsepsiyanın konkret fəlsəfi mənasını çatdırır. Axı bizim dildə azman güclü,qüvvətli deməkdi… Konsepsiya belədir ki, kim sağlam, güclü, qüvvətli olmaq istəyirsə, mütləq Azman sosiskaları istifadə etməlidir.

*Kiçik bir sükut çökür, hamı heyranlıqla Nurlana baxır…*
*Aqşin qəribə yarımsərxoş halda qəfildən ayağa qalxır.*

**AQŞİN –** Ayy da, mən gör neçə ildi bu xalqın bir çox mənəvi-psixoloji problemləri üzərində baş sındırıram, araşdırmalar aparıram, o qədər məqalələrim çıxır. Amma, sən demə, hər şeyin baiskarı sosiska imiş… Dəhşət, mən necə cahil olmuşam ey… Özüm illərlə işdə obeddə sosiska yemişəm, heç düşünməmişəm ki, onun içindəki maddələr mənim beynimi korlayır, psixikamı dağıdır… Həm də tək mənim yox, hamımızın. *(Aqşinə yaxınlaşır)* Gəl, səni öpüm, qurban olaram sənə… Necə tapmısan ey. Əsl alman sosiskası… Deməli, bütün problemlərimizin səbəbi odu ki, biz əsl alman sosiskasının dadını bilmirik...

**NURLAN –** *(kinayəni anlamır)* Əlbəttə ki, məsələ tək sosiskada deyil, mən şərti olaraq dedim. Qida keyfiyyətsiz olanda toplumun xasiyyətinə, xarakterinə, iş qabiliyyətinə, düşüncəsinə, hətta sosial münasibətlərə də təsir edir… Məsəlçün, biz yalnız sağlam mal-qaranın ətindən istifadə edirik. Cins mal-qara… Argentinadan və Braziliyadan gətirirlər.

**AQŞİN –** Argentinadan? Braziliyadan?

**NURLAN –** Bəli, bəli.

**AQŞİN –** Ay da… Pele, Maradona, Ronaldo, Messi… Yəqin ki, onlar da məhz həmin cins mal-qaranın sosiskasını yeyirlər, ona görə belə yaxşı oynayırlar... Bizimkilərinsə oyunu heç cür alınmır. Çünki bilmirlər əsl sosiska necə olur… Nəinki idmançılar... hətta neftçilər, energetiklər… Hələ əsgərlərimizi demirəm… Bütün hərbçilərimiz orqanik sosiska yeməlidi...

**NURLAN –** *(qəfildən sanki sevinir, anasına çönür)* Gördüz? Mən ataya neçə dəfə dedim, əhəmiyyət vermədi... Hərbi nazirliklə münasibətlər qurmaq vacibdi. Hərbçilərin qida təminatı yüksək səviyyədə qurulmalıdı, əsgərin orqanizmi güclü olmalıdı… Mən maraqlanmışdım, burda orduda əsasən ət konservlərindən istifadə olunur. Tuşonka deyirlər deyəsən... Onların nə kalorisi var ki? heç bilinmir nə ətdən düzəldirlər.

**AQŞİN –** Hə də, elə il uzunu tuşonka konservi yeyirlər ki, qollarının gücü olmur, torpaqlarımızı da ala bilmirlər də… Dahiyanə fikirdi, rədd olsun tuşonka, bizim əsgərlər bundan sonra yalnız alman sosiskaları yeməlidi...

**NURLAN –** Azman sosiskaları…

**AQŞİN –** Bəli, mən də deyirəm... Göndərin o sosiskalardan, yeyək, hamımızın qoluna qüvvət gəlsin, kişi kimi duraq ayağa, gedib yapışaq erməninin yaxasından… Hərbçilərimiz də mütləq Azman sosiskaları yesinlər, azman olsunlar, qəhrəman olsunlar, gedib torpaqlarımızı azad eləsinlər… Başqa yolumuz yoxdu… Yoxsa tuşonkayla vətən azad eləyərlər?

**NURLAN –** Lap həvəsə saldız məni. Mütləq təkid edəcəm atama ki, bu məsələnin üstünə düşsün…

**AQŞİN –** *(qədəhi götürür)* Bəli, üstünə düşmək lazımdı. İndi isə, gəlin içək əsl alman sosiskalarının sağlığına. Hamımız da çıxıb gedək Almaniyaya, sosiska istehsal edək, vətənə xeyir verək…

*Hamı başa düşür ki, Aqşin Nurlanı prikola tutur, amma bircə özü başa düşmür…*

*Sükut çökür…*

*Birdən Aqşinin əhvalı dəyişir, səsi boğulur...*

*Sanki qəfildən üstünə ağırlıq çökür…*

**AQŞİN –** Bağa gedəndə ətrafa baxıram, bağların yarısı bomboşdu, hansını soruşursan, deyir xaricə köçüb... Hərdən elə fikirləşirəm ki, bir azdan daha heç kim buraları bəyənməyəcək… Hamı çıxıb gedəcək… Bütün bağlar o günə qalacaq, bütün həyətləri tikan basacaq... güllər quruyacaq...

**XUMARƏ –** *(onun sözünü ağzında qoyur)* Aa, niyə quruyur ki güllər? Bizim bağban bilirsən nə güllər əkir? Rəngbərəng qızılgüllər, qərənfillər… O vaxt neçə dənə şitil göndərmişdi, Sevil burda əkdi… Elə qəşəng gül açıblar ki… Baxanda adamın bütün əsəbləri sakitləşir…

**AFA XANIM –** Hə, mən elə bayaqdan pəncərədən baxıram ki, o nə qəşəng güllərdi həyətdə... qəribə rəngləri var...

**XUMARƏ –** Həə, hamısına Sevil qulluq edir... Hələ uzaqdan çox hiss olunmur gözəlliyi. Həvəsiniz varsa, gedin yaxından baxın…

**AFA XANIM –** Hə, olar… Həm də beş-on dəqiqə havamızı dəyişək… *(kinayə ilə Aqşinə baxır)* Nəsə çox ağır oldu içərinin havası, ürəyim çıxıldı elə bil…

**XUMARƏ –** Qızım, Sevil, apar qonaqları güllərə baxsınlar, biz də süfrəni təzələyək…

*Afa xanımla Nurlan Sevilin müşayiətilə aynabəndə çıxırlar, həyətə düşürlər…*

**ZÖHRƏ –** *(Aqşinə)* Yaxşı da, mən Kamalənin ağzını birtəhər bağladım, indi sən başladın? Az iç də o zibili… Bayaqdan fikir verirəm, rumkanı rumkaya dirəmisən…

**AQŞİN –** İçkinin bura nə dəxli var… Sözün düzünü deyirəm də… *(yenə içir)* Ağızlarına gələni danışıb, adama od qoyurlar… Elə bil iyirmi il Almaniyada yaşamaqla kral rütbəsi alıblar. *(qəhqəhə çəkir)* Sosiskalar kralı...

**ELXAN MÜƏLLİM –** Elə bankda da belə eləyirsən ki, hamı narazıdı da…

**AQŞİN –** *(əsəbi)* Çıxartmasınlar adamı özündən…

**ZÖHRƏ –** Bəsdi görüm, sənə nə? Bizim qonaqdı da... Sən də qonaqsan, o da qonaqdı. Sənin də, arvadıvın da yüz dənə xasiyyətinə dözürük, heç onu demirsən. İllərdi yola veririk...

**AQŞİN –** Qonaq deyiləm, mən özünküyəm...

**ZÖHRƏ –** İmkan versən, onlar da özümüzünkü olar… *(əlini yellədir)* Sonra deyir ki, Elmira deyinir. Deyinər də… Yüz qram içən kimi dilini saxlaya bilmirsən, hamını ələ salırsan…

**AQŞİN –** Eeh, mən başa düşmürəm ey. Niyə mənim ağzımı bağlayırsız axı... Kimdi ki onlar ey… Ağıllarına gələni danışacaqlar, mən də qulaqlarımı sallatmalıyam sizin kimi?

**XUMARƏ –** Günah səndə deyil, günah bizdədi… Gərək o vaxt qabağını saxlamazdıq. O ki başına düşmüşdü e, mən də gedirəm Raufun yanına, MAXE olacam, nə bilim, olacam… Gərək gedərdin, Murovun palçığında biriki il qalandan sonra belə danışmazdın…

**AQŞİN –** Gedirdim də… Rauf da artıq danışmışdı, hər şeyi həll eləmişdi... İki bacı girdiz araya, tökdüz gözünüzün yaşını, mənim də yazığım gəldi sizə. Gərək fikir verməzdim, gedərdim, heç olmasa indi belə söhbətlər eşitməzdim…

*Aqşin əsəbiliklə siqaret yandırıb aynabəndə çıxır…*

**ELXAN MÜƏLLİM –** *(Xumarəylə Zöhrəyə)* Gördüz? O vaxt mən sizə dedim ki, araya girməyin, qoy getsin... Sonra sizi borclu çıxardacaq…

**ZÖHRƏ –** Aa, bundan hərbçi olar? Mənim buna yazığım gəlmədi e, Raufa yazığım gəldi... Hərbiyə getsəydi, iki gündən bir Raufun zəhləsini tökəcəkdi ki, filan yerdə çətindi, çıxart məni burdan, filan yerdə bacarmıram, yerimi dəyiş… Onsuz da orda azdı Raufun problemi, hələ bir bunu da yükləyəydik boynuna… Qoy oturmuşuq, sən Allah, heç olmasa burda, gözümüzün qabağındadı, nə zibili olursa, birtəhər həll eləyirik…

*Elxan divarın dibindəki dolabın üstündə düzülən hədiyyələrə baxır…*

**ELXAN MÜƏLLİM –** *(Zöhrəyə)* Bəs atası nə alıb Sevilçün, onunçün?

**ZÖHRƏ –** Hələ heç nə… Nəsə almağı bir yana qalsın, bilir qızının ad günüdü bu gün, heç zəng də eləməyib… Üç dörd gün sonra da həmişəki kimi

zəng vuracaq ki, bağışla qızım, dağda idim, daşda idim, əlaqə saxlıya bilmədim-filan… keçən il də elə oldu, inişil də…

*Afa xanım tək içəri girir, Xumarə aynabəndə baxır, görür Aqşin dilxordu, Nurlanla dayanıblar, Aqşin əsəbiliklə nəsə danışır, Nurlan başını tərpədir…*

**XUMARƏ –** *(Elxana yaxınlaşır)* Yenə arvadla qırışıblar. Yaman dilxordu. Sən Allah, get könlünü al. Yazıqdı… *(pıçıldayır)* Həm də bax, Nurikin yanında yenə artıq-əskik danışmasın, uşağın xətrinə dəyər…

**ELXAN MÜƏLLİM –** Hə, düz deyirsən, bunun dilinin tormozu yoxdu... nəzarətsiz qoymaq olmaz…

*Elxan başını yellədərək aynabəndə, həyətə çıxır, Aqşinlə nəsə söhbət eləməyə başlayır…*

*Sahib də içəridə yalnız qadınların qaldığını görür. Anası ona işarə edir, Sahib başa düşür, o da qalxıb aynabəndə çıxır, kişilərin yanında oturur…*

*Xumarə stol arxasına əyləşən Afa xanımın yanında oturur…*

**XUMARƏ –** Sən Allah, bağışlayın… Fİkir verməyin ey, biz öyrəşmişik artıq… *(ah çəkir)* Allah saxlamış o vaxt getdi səfeh bir qıza ilişdi, nə qədər dedik ki, ay Aqşin, o qız nə sənin tayındı, nə də bizim ailənin, gəl səninçün layiqli bir qız tapaq, amma qulaq asmadı. Ay nə bilim, sevirəm, onsuz yaşaya bilmərəm…

**AFA XANIM –** *(gizli kinayə ilə)* Hə, bizdə də eyni vəziyyətdi…

**XUMARƏ –** *(kinayəni hiss eləmir)* Budey, bu da axırı… İki gündən bir qırıb çatırlar bir-birini, uşaqları götürüb gedir anasıgilə. Aqşinin də beyni çönür. Uşağın gününü göy əskiyə büküb. Boşanmaq da gecdi, uşaqlar böyüyür… Nə bilim, əşi… Nə isə, keçək əsas məsələyə…

*Sevil də o biri otağa keçir, yalnız Kamalə süfrədən artıq şeyləri yığışdırmaqla məşğul olur...*

**XUMARƏ –** *(yavaşca)* Mən başlayım söhbətə, ya siz özünüz başlayırsız?

**AFA XANIM –** Sən başlasan yaxşıdı…

**XUMARƏ –** Olsun… *(çönür)* Zöhrə, bacı, onları sonra yığışdırarsan... Beş dəqiqə bu yana əziyyət çək…

*Zöhrə gəlib onların yanında oturur…*

**XUMARƏ –** Bilirsən, düzü heç bilmirəm söhbətə hardan başlayım… *(yalançı tərəddüdlə başını tərpədir)* Bizim Afa xanım elə yaydan bəri mənə eşitdirir ki, kaş adamın Sevil balamız kimi bir gəlini olaydı…

*Afa xanım razılıq əlaməti olaraq başını tərpədir…*

**XUMARƏ –** Amma mən dedim ki, özbaşına araya girə bilmərəm, elə bir aya Sevilin ad günü olacaq, qonaq çağıraq sizi, orda ilkin söhbət edərik.

**AFA XANIM –** Düzdü, əsas məsələ budu ki, Nurikin də çox ürəyinə yatıb Sevil qızımız… Özü də Nurik hər adamı bəyənən deyil ey… Bilirsiz nə qədər bankir qızı, prokuror qızı tapmışdım onunçün? Hətta bir icra başçısının qızı da vardı… Arturun yaxın dostu idi, çox istəyirdi onlarla qohum olaq…

**XUMARƏ –** Yadımdadı, demişdiz mənə.

**AFA XANIM –** Həə, o qədər əlləşdim, amma heç birini bəyənmədi. Dedi intellektual səviyyələri aşağıdı. Arada bir-iki dəfə söz atdı ki, bəlkə ordan evlənim, ona da mən razı olmadım. Dedim sən Allah, qanımızı qatma. (ağzını büzür) Eybi yox, qoy elə-belə adi ailədən olsun, amma yaxşı qız olsun.

*Kamalə yenə müdaxilə eləmək istəyir, amma Xumarə onun əlini sıxır, Kamalə başını yellədərək boşalmış qabları yığıb mətbəxə keçir…*

**AFA XANIM –** Əvvəl mənim özümə də təəccüblü gəldi ki, necə oldu, burdan kimisə bəyəndi? Sonra fikirləşdim ki, hansı ailədən olursa olsun, əsas budu ki Nurikin ürəyi istəyəndi. Eybi yox, day neynək, olmasın bankir, prokuror qızı, olsun general qızı…

*Bu dəfə Zöhrə artıq özünü saxlaya bilməyib nəsə demək istəyir…*

**ZÖHRƏ –** Ailə deyəndə ki…

**XUMARƏ –** *(imkan vermir)* Düz-əməlli ailəsi olmayan qıza heç yaxın getmək olar ki? Şükür Allaha ki, Nurlan balamızın seçimi kor-koranə deyil…

**AFA XANIM –** Hə, atasına da eşitdirmişəm. Əvvəl bir az mızıldandı, *(Zöhrə Xumarəyə baxıb qaşlarını çatır)* sonra dedi ki, özünüz bilərsiz. Nurikin ürəyi istəyirsə, mən də etiraz eləmərəm…

**XUMARƏ –** İndi ay Zöhrə, söz sizindi… Düzü, bu xeyir iş baş tutsa, elə ən çox sevinən elə mən olacam. Yaydan bəri baxıram Nurlanla Sevilə, Allah saxlamışlar necə yaraşırlar ey bir-birinə… Hər ikisi ağıllı, savadlı, yaraşıqlı… Təki hər şey yaxşı olsun.

**ZÖHRƏ –** *(əsəbini sıxaraq)* Düzü, belə məsələlərdə ayaqüstü cavab vermək çətindi… Bir az vaxt verin bizə, məsləhətləşək, atasıyla da danışım...

*Zöhrənin belə danışması Xumarəni çaşdırır, hiss olunur ki, Zöhrənin o saat razılaşacağını gözləyirdi…*

*Kamalə də otağa qayıdır, onların yanında oturur, amma söhbətə müdaxilə etmir…*

**AFA XANIM –** Olsun, biz tələsmirik… Nurikin elmi işini müdafiə eləməsi də bir neçə ay çəkəcək… Ondan sonra ətraflı danışarıq… *(Xumarəyə)* O vaxtacan yəqin ki atasının da general məsələsi həll olunar…

**XUMARƏ –** *(tərəddüdlə)* Yəqin ki olar da…

**AFA XANIM –** O məsələ düzəlsəydi, çox yaxşı olardı…

**ZÖHRƏ –** *(gərgin)* Nə fərqi var ki? Polkovnik generaldan bir pillə aşağıdı da…

**AFA XANIM –** General olmağı bizimçün daha yaxşıdı da… Baxmayın, qohum var, dost var… Hamı maraqlanacaq ki, kiminlə qohum olursuz. Heç olmasa general qızıdı, desək, çox ağız büzməzlər…

**XUMARƏ –** *(zarafata salmaq istəyir)* Eeh, bunlar xırda şeydi, soruşsalar, deyin ki, general qızıdı… Sizdən sənəd-filan istəyəcəklər ki?

**AFA XANIM –** Aa, siz nə danışırsız? Bizimkilər yarım saatın içində bütün interneti qurdalayıb axtaracaqlar… İndi elə zamandı ki, heç nəyi gizlətmək olmur. *(nəsə düşünür)* Əgər ehtiyac varsa, biz də öz əlaqələrimizi işə salaq, hərtərəfli kömək edək… Şükür Allaha ki, hər yerə əlimiz çatır…

**XUMARƏ –** Yoox, ehtiyac yoxdu… Özümüz həll edərik…

*Zöhrə daha dözə bilmir, dişlərini sıxaraq qalxır.*

**ZÖHRƏ –** Rauf general olsa da, olmasa da…

*Elə bu vaxt stolun üstündə qalan telefonlardan biri zəng çalır, Afa xanım baxır ki, Nurlanın telefonudu...*

**AFA XANIM –** *(götürüb baxır)* Aaa, atasıdı ki… Görəsən, nəsə nigarançılıq yoxdu ki?

*Afa xanım telefonu götürüb açır, danışa-danışa aynabəndə tərəf gedir.*

**AFA XANIM –** Hər vaxtın xeyir, salamatlıqdı? Hə, şükür. Burdadı, indi verirəm. Danış, sonra mən də bir-iki məsələni sənlə məsləhət eləməliyəm. Vaxtın varsa, danışarıq…

*Afa xanım aynabəndə çıxıb, arxasınca qapını örtür… Xumarə əsəbiliklə Zöhrəyə çönür…*

**XUMARƏ –** Sənə nə oldu axı? Biz ki razılaşdırmışdıq hər şeyi… Daha vaxt istəmək nədi?

**ZÖHRƏ –** *(əsəbi)* Mən başa düşmürəm e, qızı almaq istəyirlər, ya atasını…

**XUMARƏ –** *(sakitləşdirməyə çalışır)* Aaa, burda nə var ki? Onlar o cür nüfuzlu adamlardı, ərinin elə ən əskik dostu icra başçısıdı, rayon prokurorudu, bank prezidentidi... Hələ xaricdəkiləri demirəm... İndi o da istəyir ki, dost-tanışı yanında başıaşağı olmasın da…

**KAMALƏ –** Polkovnik qızını almağı özünə sığışdırmırsa, heç almasın... Lazım deyil…

**XUMARƏ –** Bəsdirin, siz Allah... *(Zöhrəyə)* Mən neçə aydı can qoyuram ki, bu məsələ düzəlsin… İnşaallah alınsa, uşaqların ikisinin də gələcəyi birdəfəlik təmin olunacaq… İstəmirsiz ki? Yoxsa istəyirsiz qalıb burda çürüsünlər ataları-anaları kimi?

**ZÖHRƏ –** *(birtəhər özünü ələ alır)* Yox, Xumarə, belə quda ilə mənə çətin olacaq…

**XUMARƏ –** Sənin onunla nə işin? Qoy evlənsinlər, çıxıb getsinlər Avropaya…

**ZÖHRƏ –** *(tərəddüdlə)* Bunlar heç bizim aldığımız cehizi-filanı da bəyənməyəcəklər...

**XUMARƏ –** Narahat olma, mən kömək edərəm, hər şeyi yüksək səviyyədə eləyərik…

**KAMALƏ –** Bəs general məsələsi?

**ZÖHRƏ –** Hə, doğurdan. Görmədin dedi ki, Rauf general olmasa, işimiz alınmayacaq?

**XUMARƏ –** Elə demədi, özünüzdən söz çıxartmayın… Onu da mən həll edəcəm… Nuriki başa salaram. Uşaq özü dirənsə, ər-arvad etiraz etməyəcək… Başa düşün də… Biz bunlarla yaxın qohum olsaq, elə bil ki, dərənin dibindən göylərə qalxacağıq… İnanın mənə. Özün bilirsən ki, mən boş-boşuna söz demirəm... Bu vaxtacan hansı sözüm sizə ziyan olub ki? Nə demişəmsə…

*Elə bu vaxt Afa xanım həyəcanla içəri girir...*

**AFA XANIM –** Ay Xumarə, qardaşınla ərin nəsə mübahisə edir, sən Allah, gəlin, sakitləşdirin...

*İçəridəki qadınlar çönüb görürlər ki, Aynabənddə Aqşin Elxanla nəsə mübahisə edir, Sahiblə Nurlan da araya girib Aqşini sakitləşdirməyə çalışırlar...*

*Xumarə ilə Zöhrə tez aynabəndə çıxıb, Aqşini içəri çəkirlər...*
*Bir az sərxoş olduğuna görə, dili topuq vuran Aqşin deyinməyində davam edir...*

**AQŞİN –** Bezdirmisiz adamı, hamı ağıl verir. Biri deyir çıx get Avropaya, o biri deyir get camaatın dərisini soy, pul yığ...

*O biri kişilər də içəri girirlər...*

**ELXAN MÜƏLLİM –** *(əsəblərini çətinliklə saxlayır)* Yaxşı, biz pisik, biz camaatın dərisini soyuruq, bunlar *(Nurlanı göstərir)* satqındılar, ölkəni atıb gediblər, hamı pisdi, bir sən yaxşısan, bir sənsən vətəni sevən, igid qəhrəman...
**XUMARƏ –** Ay Elxan, bəsdi, baş qoşma... *(Aqşinə)* Sən də bəsdi də, indi arvadla dava eləmisən, camaat neynəsin səninçün? Hirsini bizdən çıxırsan?
**ELXAN MÜƏLLİM –** *(arvadına əhəmiyyət vermir, davam edir)* Xoşuna gəlmir, işləmə, çıx get, odey, get otur səngərdə, palçığın içində, Rauf kimi böyrəklərini çürüt orda...
**AQŞİN –** Gedəcəm, elə bilirsiz getməyəcəm? Gedəcəm...
**XUMARƏ –** *(Afa xanıma)* O ləçər bu uşağın başını xarab eləyəcək axırda...
**AQŞİN –** *(stoldakı qədəhdə qalan içkini də başına çəkir)* Bu dəfə heç birivizin gözünün yaşına baxmayacam, gedəcəm Raufun yanına... Özüm də səngərin palçığında oturan deyiləm, bəsdi daha, iyirmi beş ildi oturmuşuq, kifayətdi, Raufdan bir dənə avtomat götürəcəm, gedib girəcəm erməninin səngərinə hamısını qırıb çatacam.
**XUMARƏ –** Yaxşı, bəsdi görüm, spetsnaz olub mənimçün.
**AQŞİN –** Niyə? Mən Mübarizdən əskik oğulam ki? Qoy məni də vurub öldürsünlər... Sonra gəlib qəbrimin üstündə tökərsiz göz yaşını...

*Aqşin əsəbiliklə yekə divar saatına bir-iki təpik vurur...*
*Hamı təccüblə ona baxır...*
*Bircə Teymur kişi qarşısında oturduğu televizora dikilib, sanki ətrafdakı hay-küyü eşitmir...*

**AQŞİN –** Bəsdi daha bu qoca saat kimi məğmın qaldıq bir küncdə... Bəsdi, bəsdi... *(saata bir-iki təpik də vurur)* Çürüyüb gedirik, heç nə də dəyişmir... Bütün həyat dayanıb o köhnə saat kimi… *(Bacılarına çönür)* İndi də bunların başına dolanırsız, bayaqdan yaltaqlanırsız... Axı böyük şərəfdi belə adamla qohum olmaq… Axı onlar xaricdə yaşayırlar, biznesmendilər, pullarını balta kəsmir… Yaltaqlanın, bütün zəhərlərini udun, əvəzində mənə göz ağardın, mənim ağzımı bağlayın ki, səsim çıxmasın, ay aman, birdən xətirlərinə dəyər… Təki qızımızı alsınlar, qohum olaq, bizə də bir yol açılsın, bizə də bir pəncərə açılsın işıqlı dünyaya… qaranlıqda ömürlük çürüməyək... heç olmasa

bir pəncərə açılsın… işıq düşsün... vacib deyil ki, o pəncərədən kimsə çıxa bilər, çıxa bilməz, bu, sonrakı işdi, əsas budu ki, pəncərə açılsın, işıq düşsün, üzümüz işıqlansın, içimizə ümid gəlsin… *(şok içində olan Nurlanı göstərir)* Heç fikirləşmisiz ki, bu sosiska kralından da Raufa kürəkən olar? *(Zöhrəyə)* Sən polkovnik Rauf Mirbabayevin arvadısan ey… Nə bükülmüsən bunların qabağında? Nə günə düşmüşük biz. *(Teymur kişiyə yaxınlaşır)* Teymur kişi qranatamyotu çiyninə qoyanda, elə bilirdin əjdaha çıxıb meydana. İndi odey, bükülüb orda, arabada. Bir ovuc olub. Bir oğlu şəhid, bir oğlu da iyirmi il orda boş-boşuna oturub səngərdə. Nə olsun? Nəyə görədi bunlar? Heç nəyə görə. Elə belə… O bükülməyib ey, bütün millət bükülüb. Hamımız. Nə vaxtacan?

**ELXAN MÜƏLLİM –** Belə igidsən, heç kimin sözünə baxmazdın da. Gedərdin… Gedən deyildin axı… Elə bəhanə lazım idi… Arvadlar düşdü ortalığa, sənə də bəhanə düşdü ki, gedirdim, qoymadız. Gedən heç bir qadın sözünə baxmaz. Odey, Rauf kimi… Sən getmədin, çünki zəif adamsan.

**AQŞİN –** *(sanki gücü tükənir, stula çökür)* Düzdü, zəif adamam. Düzdü. Çünki mən canımı qoyduğum işin nəticəsini görmək istəyirəm… İstəyirəm görüm ki, əziyyətimin bəhrəsi var... On il o saytda əlləşdim... Nə olsun? Heç nə… Tənqid elədiyimiz, ifşa elədiyimiz adamların çoxu hələ də iş başındadı… İllər keçir, onilliklər keçir, ömür gedir, heç nə dəyişmir… İllər keçir, amma ayağının altında hələ də möhkəm torpaq hiss eləmirsən, hələ də bataqlığın üstündə gəzməyə çalışırsan. Nə o bataqlıqdan tam çıxa bilirsən, nə də hər şeydən əl üzüb bata bilirsən. Cəbhədə də elə… Gedərəm, palçığın, qarın-şaxtanın içində oturaram, amma bilim ki, bir nəticəsi var…

**ELXAN MÜƏLLİM –** Bunlar hamısı bəhanədi... Güclü olan belə şeylərə əhəmiyyət verməz...

**AQŞİN –** Düz deyirsən. Mən zəifəm. Rauf kimi güclü deyiləm… Mən onun kimi bacarmaram, mən Rauf kimi 25 il heç bir nəticəsi olmadan, səngərdə oturub böyrəklərimi çürüdə bilmərəm… Ən azından, öz-özümə sual verəcəm ki, axı mən burda niyə durmuşam? Əgər beş kilometr qabaqda, gözümlə görə bildiyim kəndimizə gedə bilmirəmsə, o köpəyuşaqlarının boynundan tutub torpağımızdan tullamağa imkan vermirlərsə, onda mən burda niyə əziyyət çəkirəm? Niyə? Erməninin səngərinə baxıb əsəbiləşməkçün? Onların tənələrinə dözməkçün? Bir il, iki il, beş il, dözərəm. Amma bilim ki, əvvəl-axır bütün şəhidlərimizin qisasını alacam, əvvəl-axır yumruğumu endirəcəm başlarına. Amma yox, qoymurlar axı... Odey, apreldə, elə birinci yumruğu vurduq, yapışdılar əllərimizdən ki, olmaz, neynirsiz, axı siz sülhsevər xalqsız, axı siz humanist millətsiz, danışıq yoluyla hər şeyi həll edərik. Vuruşmaq olmaz. *(Qonaqları göstərir)* Ondansa gedərəm elə mən də bunlar kimi dünyanın o başına… (əlini yelləndir) Cəhənnəm, ingilisin, nemesin qabağında belimi bükərəm, onlara yaltaqlanaram, qulluqlarında duraram. Heç olmasa, bilərəm nəsə nəticəsi var…

**NURLAN –** O nə sözdü deyirsiz?

**AQŞİN –** Yaxşı görək, yalan deyirəm ki? Gəlib burda sinənizi qabağa verib kral kimi gəzirsiz ki, biz Avropada yerbəyer olmuşuq, evimiz, işimiz, biznesimiz… Amma orda onların qabağında quyruq bulayırsız, təki sizə dəyməsinlər, təki iş görməyə, yaşamağa imkan versinlər…

**NURLAN –** Biz oranın bərabər hüquqlu vətəndaşlarıyıq…

**AQŞİN –** Hə, düzdü, orda vətən yoxdu. Orda vətəndaş var... ancaq vətəndaş… Görəsən vətən məfhumunun itdiyi yerdə vətəndaş necə ola bilər?

*Qəfildən Teymur kişi qışqırır...*

**TEYMUR KİŞİ –** Bəsdirin, sakit olun...

*Hamı çönüb ona baxır...*
*Teymur kişi əlindəki pultla televizorun səsini qaldırır...*
*Televizorda dövlət başçısı danışır, müharibə başladığını deyir, vəziyyəti anladır, iyirmi beş illik atəşkəs ərzində sülh danışıqlarının heç bir nəticə vermədiyini bəyan edir.*
*Hamı diqqətlə qulaq asır.*
*Sonda prezident elan edir ki, əks-hücuma keçən ordumuz Füzuli və Cəbrayıl rayonlarının bir çox kənd və qəsəbələrini düşmənin işğalından azad edib, bu dəfə biz sona qədər gedəcəyik, Qarabağ bizimdi, Qarabağ Azərbaycandı...*
*Çıxış bitir...*

*Hamı təəccüblə əvvəl televizora, sonra da bir-birinə baxırlar...*

**XUMARƏ –** *(inamsızlıqla)* Əşi, yenə beş-altı gün atacaqlar, sonra saxlayacaqlar...
**ELXAN MÜƏLLİM –** *(fikirli)* Yox, bu dəfə başqa cür danışdı, deyəsən, həqiqətən axıracan gedəcəklər…

*Onlar danışdığı müddətdə Teymur kişi köhnə telefonuyla kiməsə zəng vurur, bərkdən danışır...*

**TEYMUR KİŞİ –** *(bərkdən)* Salam Rauf… Salamatlıqdı? Hardasan? *(dinləyir)* Başa düşdüm… Özündən muğayat ol…

*Hamı Teymur kişiyə baxır…*

**TEYMUR KİŞİ –** *(otaqdakılara çönür)* Rauf dedi, Füzulinin yaxınlığına çatmışıq…
**AQŞİN –** *(gözləri bərəlir)* Dəqiq? Elə dedi?
**TEYMUR KİŞİ –** Topların gurultusundan yaxşı eşitmək olmurdu… Dedi, imkan tapıb özüm əlaqə yaradacam…

*Hamı təəccüb və inamsızlıq içində olsa da, ən əvvəl Aqşin ayılır. Stolun üstündəki mineral sulardan bir şüşəsini götürüb açır, başını əyərək suyu başına tökür, başını silkələyir, sanki bir az da ayılır… Sonra telefonu çıxardıb dostlarından birinə zəng vurur, salam-kəlamsız bərkdən danışmağa başlayır…*

**AQŞİN –** Gedirik? Hazırsız? Əla... Elə bu gün… Mən də çıxıram…
**XUMARƏ –** *(sanki hiss edir)* Hara gedirsən?
**AQŞİN –** *(həyəcanla)* Raufun yanına… Ancaq ora. Ora. Bu saat bütün kişilərin yolu ancaq oradı.

*Aqşin dişlərini sıxaraq Nurlana və Elxana baxır, sanki nəsə ağıR bir söz demək istəyir, amma əlini yellədib özünü saxlayır, nə düşünürsə, qəfildən çönüb qətiyyətlə Elxanın üstünə yeriyir…*

**AQŞİN –** Açarları ver…

**ELXAN MÜƏLLİM –** *(çaşır)* Nə?
**AQŞİN –** Maşının açarını ver... Tez ol…

*Elxan bu qətiyyətin qarşısında sanki ovsunlanmış kimi, maşının pultunu çıxardıb ona uzadır…*

**AQŞİN –** Rauf Füzuliyə tankda girəcək, mən sənin cipində… *(dəli qəhqəhə çəkir)* Fəxr eləyərsən cipinlə…

*Aqşin sürətlə qapıya tərəf gedir…*
*Birdən Kamalə də sanki yuxudan ayılır, qapıya tərəf atılır…*

**KAMALƏ –** Aqşin, gözlə, mən də gəlirəm…

*Kamalə tez asılqandan gödəkçəsini götürüb geyinir...*

**XUMARƏ –** Ay qız, orda sənlik nə var ki?
**KAMALƏ –** Heç olmasa qospitalda həkimlərə kömək edərəm…

*Kamalə də surətlə çıxır…*

*Xumarə sanki birdən xatırlayır ki, Aqşin bayaqdan içki içirdi…*

**XUMARƏ –** Ay Elxan, niyə verdin açarı? Gedib avariya eləyər… Görmədin piyandı?

*Qəfildən Zöhrə yumruğunu stola vurub qətiyyətlə ayağa qalxır…*

**ZÖHRƏ –** Heç nə olmaz… O, bu saat bizim hamımızdan ayıqdı… Çünki kişidi…

*Hamı çönüb Zöhrəyə baxır, onun üzündə qeyri-adi bir parıltı görünür…*

**ZÖHRƏ –** *(otaqdakılara baxır)* Nədi, nə baxırsız? Yoxsa artıq yadınızdan çıxıb ki, yan-dövrəmizdə kişilər də var? *(danışdıqca səsi qalxır, həyəcan onu boğur)* Hə, kişi deyirəm… Puluyla, maşınıyla fəxr eləyənləri demirəm… Yuxarıdakıların qabağında bükülüb, aşağıdakıları tapdalayanları demirəm… Min cür fırıldaqla evini şah sarayına döndərənləri demirəm… Camaatın qanını içib qarın çıxardanları demirəm… Vətəni tapdalayıb göylərə qalxanları demirəm… Saunalarda qıçı boyda qızlarla kef eliyənləri demirəm… *(Elxan diksinir)* Dünyanın o başında özünə yer eləyib burnunu dik tutanları demirəm… *(danışdıqca həyəcanlanır)* Əsl kişiləri deyirəm… Şükür sənə, ilahi, *(gözləri yaşarır)* şükür ki, kişilərimizə öz kişi sifətini göstərməyə imkan verdin… Şükür sənə, ilahi, imkan vermədin ki, hamısının içi çürüyüb getsin… Şükür ki, qapımızı açdın…
**XUMARƏ –** Aa, nə danışırsan? Türmədəydik bəyəm, qapımız açıldı?
**ZÖHRƏ –** *(sanki qəzəbi partlayır)* Hə, türmədəydik… Bütün şəxsiyyətimizi, ləyaqətimizi salmışdıq türməyə, özümüz də boynumuzu büküb oturmuşduq türmə qapısında… *(yenə ətrafındakılara çönür, ağzını büzür)* Nə baxırsız? Hələ çatmayıb sizə? Qurtardı e əvvəlki vaxtlar… Qurtardı… *(birdən sanki nəsə xatırlayıb şkafa doğru gedir, siyirtmədən şəxsiyyət vərəqəsini, hərbi bileti*

*çıxardır, oğlunun üstünə cumur)* Götür, nə dayanmısan? Götür kağızlarını, get, sən polkovnik Mirbabayevin oğlusan.

**SAHİB –** *(çaşqınlıqla)* Bəs axı…

**ZÖHRƏ –** *(qışqırır)* Get dedim sənə… Get çat Aqşingilə…

**XUMARƏ –** *(tələsik)* Aa, sən neynirsən ay Zöhrə, uşaq magistraturaya hazırlaşır…

**ZÖHRƏ –** Magistratura qaçmır… Sən bu saat atanın yanında olmalısan, arvad böyründə yox… Sənin tayların orda güllə qabağındadı…

**SAHİB –** *(qəfil qətiyyətlə)* Düz deyirsən… Düz deyirsən… Atamı orda tək qoymaq olmaz… Qoy görsün ki, mən də yanındayam…

*Sahib sənədləri götürür, sürətlə çıxır…*
*Zöhrə isə çox həyəcanlıdır, hətta əlləri əsir…*

**ZÖHRƏ –** Get, atan sənə görə xəcalət çəkməsin, get… Sabah fəxr eləsin ki, belə oğlu var…

*Sevil anasının həyəcanlandığını görüb, su verir...*
*Zöhrə çönüb əlində su tutan Sevili görür, elə bil ki, nəyisə xatırlayır...*

**ZÖHRƏ –** *(həyəcanla)* Hanı telefonun?

**SEVİL –** Neynirsən ki?

**ZÖHRƏ –** Tez elə, Cavidi yığ, gör hardadı?

**SEVİL –** *(diksinir)* Neynirsən ki?

**ZÖHRƏ –** Sənə nə var? Tez elə, yığ nömrəsini…

*Sevil tez yığır…*

**ZÖHRƏ –** *(ağlaya-ağlaya öz-özünə)* Şükür sənə, ilahi, şükür ki, imkan vermədin… Şükür...

**SEVİL –** *(telefona)* Alo, Cavid... Bir də salam, hardasan? Beyləqandasan artıq? Hara, Füzuliyə?

**ZÖHRƏ –** *(cəld telefonu onun əlindən qopardır)* Cavid, oğlum, eşidirsən məni, bu dəfə dayandı yoxdu, bütün uşaqlara da de, batinkalarıvıza qurban olaram, dayanmayın… *(sərsəm adamlar kimi danışa-danışa səsi daha da qalxır)* Qırın hamısını, kişisən, şir kimi ol, heç nədən qorxma… Özün də arxayın ol, Sevili verdim sənə… Özündən muğayat ol deməyəcəm, salamat gələrsən, yaralı gələrsən, əlsiz-ayaqsız gələrsən, fərqi yoxdu, arvadın olar, nökərin olar… Şəhid olarsan, qəbrivin qulluqçusu, bağbanı olarıq, amma qurban olum sənə, əl saxlama, mən bu günü iyirmi beş il gözləmişəm, bütün cavanlığım gedib, ömrüm gedib bu günü gözləyə-gözləyə, eşidirsən məni, bu dəfə dayanmayın, bu dəfə əl saxlamayın, parçalayın onları, hamımızın qisasını alın, təmizləyin bizim kəndimizi, mən gəlib Çaylı dərəsini görməsəm, südümü sənə halal eləmərəm, Allah haqqı halal eləmərəm südümü…

*Sevil artıq görür ki, anası özünü idarə edə bilmir, telefonu qapıb onun əlindən alır…*

**SEVİL –** Bəsdi, nə danışırsan, ay ana, nə südü?

**ZÖHRƏ –** Hə nədi? Mən də onun anası…

*Sevil anasını stol arxasına otuzdurur, su içirdir…*

**AFA XANIM –** *(sanki birdən ayılır, bərkdən)* Xumarə, bacın nə danışır? Cavid kimdi?

*Zöhrə yenə partlayır…*

**ZÖHRƏ –** Cavid mənim təzə kürəkənim… Hə, nədi, xoşunuza gəlmir? Yoxsa elə bilirdiz ki, dağ kimi igidi qoyub, sizə qız verəcəm? Bu elə-belə qız deyil ey, polkovnik Mirbabayevin qızıdı… Hə, hə, general yox, polkovnik… İllərlə səngərdən çıxmayan polkovnik… Onun qızının sahibi də canavar kimi igid olmalıdı…

**SEVİL –** *(yenə onu sakitləşdirməyə çalışır)* Ana, bəsdi, ayıbdı…

**ZÖHRƏ –** *(səsi boğularaq)* Ayıbdı? Həqiqəti demək ayıb deyil ey… *(Elxana baxır)* Ayıb güllə qabağındakı kişilərin kölgəsində sürünüb qarın sallatmaqdı…

**AFA XANIM –** *(daha özünü saxlaya bilmir)* Nurik, dur gedək...

**XUMARƏ –** Aa, hara gedirsiz?

**AFA XANIM –** *(əhəmiyyət vermir)* Gedək oğlum, biz, deyəsən, ünvanı səhv salmışıq…

*Afa xanım Nurlanın qolundan tutur, qapıya tərəf çəkmək istəyəndə, Nurlan qolunu dartıb çəkir, Sevilə yaxınlaşır…*

**NURLAN –** *(doluxsunmuş səslə)* Sevil xanım, mən… mən sizin atanızla fəxr edirəm…

*Sevilin də gözləri dolur…*

**SEVİL –** Çox sağ olun…

**ZÖHRƏ –** Tək sən yox ey, hamımız fəxr edirik… Onun batinkasının palçığı da bizim hamımızın bütün varlığından qiymətlidi... Göydən düşməyib ey... O cür canavarlar böyüdən kişilər olub…

*Zöhrə birdən çönüb görür ki, bayaqdan televizorun qarşısında oturmuş Teymur kişi xısın-xısın ağlayır…*

*Zöhrə qəfildən yerindən sıçrayıb divardakı xalçadan asılmış ov tüfəngini götürür, Teymur kişinin üstünə gəlir…*

*Hamı yenə şok vəziyyətinə düşür…*

**ZÖHRƏ –** Teymur kişi… *(dişlərini sıxıb qəribə bir qəzəblə)* Otuz il yatanlar da durdu… Sən nə oturmusan? Sənin kimi nər kişiyə kalyaskada bükülmək yaraşmır…

*Sevil anasının üstünə cümur.*

**SEVİL –** Neynirsən, ay ana.

*Zöhrə qızını kənara itələyir…*

**ZÖHRƏ –** çəkil kənara *(qayınatasına)* Eşidirsən məni? *(bərkdən)* Teymur kişi… Qalx ayağa, deyirəm sənə…

*Teymur kişi çaşqınlıqla ona baxır, sanki tilsimlənmiş kimi, gözlərini Zöhrədən çəkmədən belini dikəldir…*

**ZÖHRƏ –** *(dəli kimi bağırır)* Qalx ayağa, Teymur kişi…

*Zöhrə tüfəngi yuxarı tutub tətiyi çəkir, atəş açılır…*
*Elə bu an divara söykənmiş iri divar saatının kəfkiri tərpənir, saat işləməyə başlayır… Hər saat tamam olanda vurulan, kilsə zənginə bənzəyən ağır, möhkəm, ardıcıl səslər otağa yayılır…*
*Ardıcıl şəkildə bir-birinin ardınca eşidilən saat zənginin gurultusu altında Teymur kişi əlil arabasının qollarından tutur, birtəhər güc verir.*

**ZÖHRƏ –** *(yenə təkrar edir)* Qalx… Qalx ayağa, deyirəm sənə…

*Teymur kişinin ayaqları əsir, hiss olunur ki, gücü çatmır, amma bütün qüvvəsini, iradəsini toplayıb, böyük əziyyətlə, çətinliklə də olsa, birtəhər əlil arabasından qalxmağa müvəffəq olur… Onun ayaqları əsməkdə davam edir, əliylə stoldan tutaraq özünü ayaq üstə saxlayır… Yavaş-yavaş sanki qalib görkəmlə belini dikəldir…*

*Otaqdakılar təəccüblə Teymur kişiyə baxırlar… Onun üzünə qəribə bir qalib təbəssümü yayılır... Hamı heyrət içindədir…*
*Zöhrə tüfəngi atır, hönkürərək gəlib Teymur kişinin qarşısında diz çökür, onun ayaqlarını qucaqlayıb ağlayır…*

*Saatın zəngi qəfildən dayanır… Bir müddət otağa sükut çökür…*

**NURLAN –** *(qəribə səslə)* Hətta işləməyən saat da gündə iki dəfə həqiqəti deyir…

*Hamı divar saatına çönür. Görürlər ki, saatın kəfkiri qəribə bir əzəmətlə yellənir… Sanki yenə zaman, yenə həyat başlanır.*
*Otaqdakılar saata zillənirlər.*

*Qəfildən Sevilin telefonuna zəng gəlir…*
*Sevil telefonu götürüb sevincək qışqırır.*

**SEVİL –** Ana, ana… Atamdı, özü də videozəng eləyir.

*Zöhrə qızına tərəf sıçrayır…*

**ZÖHRƏ –** Hanı? Göstər, tez ol…

*Sevil telefonu açır...*

*Səhnə qaranlıqlaşır, arxaya işıq düşür, sanki videozəngin görüntüsü real olaraq səhnəyə gəlir…*
*Arxa fonda artilleriya atəşlərinin və avtomat atışmasının səsləri gəlir… Hətta hay-küyün içində yaxındakı hərbçilərin qışqır-bağırı, nəsə danışmaqları da eşidilir. Hiss olunur ki, hərbi əməliyyatların gərgin məqamıdır…*

*Qaranlıqlaşan aynabəndin qarşısında, işığın içində tam təchiz olunmuş hərbi geyimdə, əlində uzun pulemyot olan polkovnik Rauf Mirbabayev peyda olur…*

*Otaqdakılar sanki peyğəmbər qabağındaymış kimi, ona zillənirlər…*

**RAUF –** Salam, qızım...

**SEVİL –** Salam, ata…

**RAUF –** Bağışla qızım, ad gününə yenə çatdıra bilmədim… Zəng eləməyə güclə vaxt tapmışam. Amma yaxın vaxtlarda gələcəm. Düşməni burdan qovub çıxardaq, mütləq gələcəm… Gələndə hədiyyə də alıb gətirəcəm… Utanma, de görüm, ürəyin nə istəyir? Nə alım səninçün ad gününə?

*Yan tərəfdən başqa hərbçilərin səsi eşidilir...*

**1-Cİ SƏS** – Nə demə komandir, haranı de…

**2-Cİ SƏS** – Hə, soruş gör haranı istəyir, alaq…

**RAUF –** *(gülür)* Həə, düzdü... Ad günün münasibətilə haranı alım səninçün?

**SEVİL –** *(ani tərəddüddən sonra qəfil qışqırıqla)* Şuşanı… Şuşanı istəyirəm, ata… *(balaca uşaq sevincilə)* Şuşanı al mənimçün. Başqa heç nə lazım deyil…

**RAUF –** *(gülür)* Yaxşı, alaram Şuşanı səninçün… Ad günün mübarək, böyük qız olasan…

**SEVİL –** *(uşaq kimi sevinərək qışqırır)* Urra, Şuşa, Şuşa bizimdi…

**XUMARƏ –** Ay qız, nə Şuşa? Şuşa bilirsən hardadı? Dağın başındadı e… Ora gedib çıxmaq olar?

**SEVİL –** Lap Himalay dağlarında olsun, atam dedisə, alacaq, mütləq alacaq…

**ZÖHRƏ –** *(irəli çıxır)* Rauf, ay Rauf…

**RAUF –** Hə, səsiniz pis gəlir… Burda yaxşı tutmur…

**ZÖHRƏ –** *(bərkdən)* Rauf… Özündən muğayat ol…

**SEVİL –** Görüntü donur deyəsən…

**RAUF –** Narahat olmayın… Hər şey yaxşı olacaq…

*Döyüş hay-küyü və atışma səsləri qırıla-qırıla kəsilir. Sanki smartfonun ekranındaymış kimi, görüntü də tam donur.*

*Rauf dayandığı yerdə məğrur heykəl kimi hərəkətsiz qalır.*

*Bir neçə saniyə sükutdan sonra Raufun arxasında işıq çoxalmağa başlayır, hərbi marş sədaları otağa yayılır. Raufun kölgəsi böyüyür, təyyarə kölgəsi kimi otağa yayılır.*

*Bütün otaqdakılar sanki qeyri-ixtiyari asta-asta gəlib onun kölgəsinə sıxılırlar…*

*Hərbi marş davam edir…*

*Fonda yenə artilleriya, atəş səsləri eşidilir…*

*Musiqinin altında gurultulu səs eşidilir.*

*- Eşq olsun Azərbaycan əsgərinə. Eşq olsun Azərbaycan igidlərinə…*

*Hərbi marş davam edir…*

***Oktyabr 2020***